9 oktyabr 2020-ci il
№33 (8897)

www.muallim.edu.az
muallim@edu.gov.az

AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## İlham ƏLİYEV, Ali Baş Komandan

# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## BİZ zəfər çalacağıq!



### Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı

"Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!"

### Madagizin tarixi adını bərpa edirəm, bundan sonra Suqovuşan adlandırılır

2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır. Qarabağ Azərbaycandır!

### Azərbaycan Ordusu daha bir neçə kəndi işğaldan azad edib

Bu gün Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndini, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndini azad etmişdir. Qarabağ Azərbaycandır!

### Cəbrayıl şəhəri və rayonunun bir neçə kəndi və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəklik azad edilib

Bu gün Azərbaycan ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir.

Bu gün Azərbaycan ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-4-5 tarixlərində özünün rəsmi "Twitter" səhifəsində yazıb.



Heydər ƏLİYEV,
ümummilli lider

# BİZ öz torpaqlarımızı, öz ərazimizi, öz Vətənimizi qoruyuruq

## Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpaqlarının müdafiəsi yolunda irəli!



Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, müstəqil Azərbaycan Respublikasının Milli Ordusu var. Bu, Azərbaycan xalqının böyük milli nailiyyətidir.

Ordu xalqın bir hissəsidir. Xalqla ordunun birliyi həmişə dövlətin də qüdrətini təmin edir, orduya da daha çox güc verir, xalqın da öz ordusuna daha çox etibar etməsinə əsas verir.

Biz müharibə istəmirik, Ermənistanın torpaqlarına göz dikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz Vətənimizi qoruyuruq.

Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpaqlarının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli!



# Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq

## Prezident İlham Əliyevin oktyabrın 4-də xalqa müraciətindən

- Əziz həmvətənlər.

Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib.

Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir.

Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Dünən bizim qədim yaşayış yerimiz - Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını töküb. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi.

Bu gün şanlı Azərbaycan Ordusu aşağıdakı yaşayış məntəqələrini azad edib: Cəbrayıl şəhəri, Karxulu kəndi, Şükürbəyli kəndi, Yuxarı Maralyan kəndi, Çərəkən kəndi, Daşkəsən kəndi, Horovlu kəndi, Decal kəndi, Mahmudlu kəndi, Cəfərabad kəndi.

Bu gün Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır. Mən hadisələrdən əvvəl demişdim. Orada təxribat törətdi, dərs verdik, dərs olmadı. Burada təxribat törətdi, dərs verdik, dərs olmadı. Nəhayət, bu dəfə təxribat törətdi, dərs verdik, indi dərs oldu.

Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!



# Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var

# Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir

**İlham ƏLİYEV**

Mənim əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə bu günlərdə təmaslarım, onun çox açıq, qətiyyətli bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var. Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda, bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynayır. Mən bunu bu günlər ərzində demişəm ki, Türkiyə bölgədə sabitləşdirici rol oynayır. Türkiyənin bölgədə və dünyada yalnız sülhə hesablanmış siyasəti artıq öz nəticələrini verməkdədir.

**Mövlud ÇAVUŞOĞLU**

Xüsusilə Zati-alinizin də vurğuladığı kimi, Türkiyənin, türk xalqının Can Azərbaycana olan dəstəyini bir daha bütün dünyaya göstərmək üçün buraya səfərə gəldim. Bu gün Sizin liderliyinizlə Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə aparır və buna qadirdir, gücü vardır, potensialı vardır. Əlbəttə, Türkiyə olaraq və türk xalqı olaraq, biz də nə vaxt ehtiyacı olarsa, hansı sahədə ehtiyac duyarsa Azərbaycana hər cür dəstəyi verməyə hazırıq. Bunu Prezidentimiz Ərdoğan və bizlər hər platformada izah edirik, vurğulayırıq. Azərbaycanın haqlı mübarizəsini bütün dünyaya çatdırmaq bizim də borcumuzdur.

Prezident İlham Əliyev oktyabrın 6-da Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

# Türkiyə – Azərbaycan üçün bir işıq yoludur - "Bir millət, iki dövlət"



Prezident İlham Əliyevin oktyabrın 5-də Türkiyənin "TRT Haber" televiziya kanalına verdiyi müsahibəsindən

- Hər zaman müzakirələr mövcud olan prinsiplər əsasında gedirdi. Bu prinsiplərin arasında Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsi vardır. İşğal altında olan bölgələrin mərhələli şəkildə azad edilməsi, bizə qaytarılması, ondan sonra da sülhün təmin olunması məsələsi müzakirə mövzusu idi. Amma bugünkü Ermənistan bütün əvvəldən, bəri başdan əldə edilmiş prinsipləri pozaraq bizə qarşı yeni hücum təşkil etdi. Təbii ki, biz əks-hücum əməliyyatına keçib öz torpaqlarımızı Azərbaycan əsgərinin gücü ilə azad edirik.

- Birinci zəmanət. Ermənistanın baş naziri bir il bundan əvvəl bizim torpaqlarımızda demişdi ki, "Qarabağ Ermənistandır", Azərbaycan xalqından üzr istəməlidir. İkincisi, o deməlidir ki, Qarabağ Ermənistan deyil. Üçüncüsü, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir. Dördüncüsü, bəyan etməlidir ki, hansı gündə, hansı bölgədən Ermənistan silahlı qüvvələri çıxır. Bu şərtlər Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq edilməlidir.

- Bu gün Azərbaycan Ordusu yalnız hərbi hədəfləri vurur. Bu, videogörüntülərdə artıq hər kəs üçün aydındır, hər kəs bunu görə bilir. Biz yalnız Ermənistanın işğalçı ordusuna qarşı döyüşürük. Mülki əhaliyə qarşı heç vaxt döyüşməmişik. Bu gün də etmirik və etməyəcəyik.

- Əziz qardaşım Tayyib bəylə tarixi xidmətimiz odur ki, biz çox güclü bir təməl üzərində müasir Türkiyə-Azərbaycan birliyini yaratdıq. Türkiyə bayraqları onsuz da Azərbaycanda hər yerdə var, Azərbaycan bayraqları da Türkiyədə. Biz bir-birimizi bir-birimizdən ayırmırıq, birlikdəyik. Bu hadisələr bir daha onu göstərdi ki, bizi ən çox dəstəkləyən, birinci dəstəkləyən Türkiyə olmuşdur, birmənalı şəkildə, qəti şəkildə. Türkiyə Prezidentinin çox cəsarətli və qəti açıqlamaları bir çox ölkələrə xəbərdarlıq oldu - kənarda durun, qarışmayın, Azərbaycan tək deyil, Türkiyə yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır!

- Bəli, təbii ki, bu, Ermənistanın terrorçu ölkə olmasını bir daha göstərir. Yəni, bu Cenevrə Konvensiyasına daban-dabana zidd olan bir hərəkətdir. Yəni, mülki əhalini, şəhərləri vurmaq qəbuledilməzdir. Gəncə şəhəri döyüş bölgəsi deyil. Gəncə şəhərinin içərisində hər hansı bir top, tank yoxdur. Niyə bunu vurursan? Yəni, nifrətə görə. Azərbaycana, Türkiyəyə qarşı nifrət onların qanındadır. Əfsuslar olsun ki, Ermənistanın gənc nəsli də bu nifrət əsasında tərbiyə edilir. Ancaq bu, bizi yolumuzdan döndərə bilməz.

- Bu gün Azərbaycanda minlərlə erməni var. Siz də qeyd etdiyiniz kimi, Gəncədə Ermənistanın hücumu nəticəsində yaralanmış insanlardan biri də milliyyətcə ermənidir. Burada ermənilər yaşayır. Onlara söz deyən yoxdur. Onlar bizim vətəndaşlarımızdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur. Erməni xalqı öz hakimiyyətinin əsiridir.

- Mən ilk dəfə prezident seçiləndə andiçmə mərasimində dedim ki, Heydər Əliyev yolu ilə gedəcəyəm, bu yoldan dönməyəcəyəm və bu yolun Azərbaycan üçün yeganə yol olduğunu demişdim. Bütün sahələrdə - istər xarici siyasət sahəsində, istər iqtisadiyyat, sosial, o cümlədən Dağlıq Qarabağ məsələsində bu yola sadiqəm.

- Mən 17 il bundan əvvəl nəyi demişəmsə, bu gün də deyirəm - Dağlıq Qarabağ bizim torpağımızdır, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir! Mən heç zaman imkan verməyəcəyəm ki, tarixi Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın. Bütün imkanlardan istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz buna yaxınlaşırıq.

- Mən təşəkkür edirəm və şadam ki, bizim söhbətimizin sonunda siz atamın çox məşhur kəlamını yada saldınız, Heydər Əliyevin sözləridir və indi bütün Türkiyə-Azərbaycan üçün bir işıq yoludur - "Bir millət, iki dövlət". Türkiyə-Azərbaycan - tək millət, iki dövlət.

## İlham ƏLİYEV, Ali Baş Komandan

# İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır!



İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!

# Mehriban Əliyeva:

## “Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun!”

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində ordumuzun cəbhədə qazandığı qələbələrlə bağlı paylaşım edib.**

**AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi-qəlbdən təbrik edirəm. Vətən yolunda canından keçmiş qəhrəman şəhidlərimizə Allah rəhmət eləsin! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!”**



## “Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq”

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

“Əziz həmvətənlər! Rəşadətli Ordumuz əzəli Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda düşmən öz məkrli niyyətlərini göstərməkdən əl çəkmir. Qızğın döyüşlərin davam etdiyi bütün həftə ərzində Ermənistan vicdansızcasına feyk xəbərlər tirajlayır. Bu şiddətli hücumda beynəlxalq birliyi fəal surətdə yanlış məlumatlandıran erməni diasporu xüsusi rol oynayır. Bu gün biz hamımız həqiqətən tarixi hadisələrin şahidləriyik! Lakin biz baş verənləri sadəcə kənardan müşahidə edə bilmərik.

Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik. Mən sizin hər birinizi erməni təbliğatının feyklərini ifşa etməyə və erməni təcavüzü haqqında həqiqətləri bütün mümkün platformalarda beynəlxalq birliyə çatdırmağa çağırıram! Azərbaycanı özünün Vətəni hesab edən hər kəs səsini ucaltmalı və ermənilərin yalanını təkzib etməlidir! Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun!”.



# Vətən uğrunda döyüşən əsgərlərimizin vətənpərvər yetişməsində sizin əməyiniz danılmazdır

## Təhsil naziri Emin Əmrullayevin 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə təbriki



Əziz müəllimlərimiz.

Sizi 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edirəm! Təkcə bu gün deyil, şagirdinizin, tələbənizin uğuruna sevindiyiniz hər gün sizin gününüz, bayramınızdır.

Bu gün Vətən uğrunda döyüşən əsgərlərimizin vətənpərvər yetişməsində, onlara milli ruhun aşılanmasında sizin əməyiniz danılmazdır. Siz sadəcə övladlarımızı öyrətmirsiniz, həm də Vətən üçün layiqli vətəndaş, əsgər yetişdirirsiniz. Bu missiyanı şərəflə yerinə yetirdiyinizə görə Sizə təşəkkür edirəm!

Pandemiya şəraitində sizin zəhmətiniz xüsusilə qeyd edilməlidir. Bu çətin günlərdə fədakar əməyinizə, göstərdiyiniz dəstəyə görə çox sağ olun!

Əziz müəllimlər.

Bu vacib və məsuliyyətli işinizdə Sizə uğurlar arzulayıram!

# Direktorluğa iddialıların çoxu qadınlardır




## İlk dəfə 1514 nəfər direktor olmaq üçün şansını sınayacaq

**Ruhiyyə DAŞSALAHLI**

Azərbaycanın ümumi təhsil müəssisələrində hazırda mövcud olan 500-dən artıq vakant direktor vəzifəsi tutmağa 3251 iddialı var. Ancaq mübarizə elektron ərizəsini təsdiqləyərək iddiasında qərarlılıq nümayiş etdirən 2479 namizəd arasında gedəcək.

Beləliklə, ölkəmizdə sentyabrın 28-dən start götürən direktor vəzifəsinə işə qəbul üzrə müsabiqə artıq test imtahanı mərhələsindədir. Oktyabrın 2-də başa çatan ilk mərhələdə iştirak etmək istəyən namizədlər *miq.edu.az/direktorlar* linkinə daxil olaraq qeydiyyatdan keçiblər. Onlar burada şəxsi səhifə yaradaraq elektron ərizələrinə müvafiq məlumatları daxil edib, tələb olunan sənədləri yüklədikdən və vakant yerləri seçdikdən sonra ərizələrini təsdiq ediblər. Həmin namizədlər təhsil haqqında sənəd (diplom və ona əlavə) və əmək kitabçasını elektron ərizədə müvafiq xanalara yükləyiblər. Qeyd edək ki, bunun üçün əmək kitabçası və təhsil haqqında sənədin yazılı qeydlər olan bütün səhifələri skan edilərək ayrı-ayrılıqda vahid fayl formatında hazırlanır.

### Namizədlər arasında fəlsəfə dokoru da, laborant və kitabxanaçı da var

Elektron sənəd qəbulunu əhatə edən ilk mərhələnin iştirakçılarının müraciətləri artıq emal olunub. Təhsil Nazirliyindən bildirilib ki, iddialıların əksəriyyəti, yəni 1350 nəfəri qadın, 1129 nəfəri kişidir. Onların çoxu direktorluq üçün keçirilən bu müsabiqəyə təkrar qatılıb. Bu il ilk dəfə şansını sınayacaq namizədlərin sayı cəmi 1514 nəfərdir. Namizədlərdən 25 nəfər xarici ölkələrin ali təhsil müəssisələrində təhsil alıb, 14 nəfər isə fəlsəfə doktoru elmi dərəcəsinə malikdir.

Direktorluğa iddialı gənclər o qədər də çox deyil. Belə ki, 22-30 yaşlı namizədlərin sayı cəmi 275 nəfər təşkil edib. Rəqəmlərdən görünür ki, təhsil işçiləri direktorluq iddiasına daha çox 30-40 yaşlarında düşür. Bu il onların sayı 1192 nəfər olub. 558 nəfər 40-50, 346 nəfər 50-60 yaşlı direktorluğa namizəddir. Ən az iddialı 60-64 yaş aralığındadır, cəmi 108 nəfər.

İştirakçıların fəaliyyət sahəsi də fərqlidir. Müsabiqədə iştirak edən namizədlərin heç də hamısı müəllim deyil. İddialılar siyahısında 1680 nəfər müəllim, 563 nəfər təlim-tərbiyə işi üzrə direktor müavini, 100 nəfər məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçı, 45 nəfər metodist və psixoloq, 26 nəfər gənclərin çağırışaqədərki hazırlıq rəhbəri, 13 nəfər uşaq birliyi rəhbəri, 6 nəfər laborant, 1 nəfər kitabxanaçı var.

### Tezliklə imtahan olacaq

Müsabiqənin növbəti - test imtahanı mərhələsi ənənəvi olaraq Bakı şəhərində deyil, ölkənin müxtəlif şəhər və rayonlarında yaradılan imtahan mərkəzlərində təşkil ediləcək. Nəticə etibarilə namizədlər bu mərhələdə iştirak zamanı yaşadıqları şəhər və ya rayona ən yaxın imtahan mərkəzinə yönəldiləcəklər. Məhz bu səbəbdən də onlardan elektron qeydiyyatdan keçərkən "faktiki yaşadığı rayon/şəhər" xanasında hazırkı yaşayış yerini qeyd etmələri tələb edilirdi.

Bu imtahanların da müəllimlərin işə qəbulu imtahanlarında olduğu kimi, karantin rejiminin müvafiq tələblərinə əməl edilməklə təşkil ediləcəyi bildirilir. Hər bir imtahan mərkəzində imtahanların təşkilinə cəlb olunan bütün əməkdaşlar COVID-19 testindən keçiriləcək. İmtahan mərkəzlərinin hazırda qüvvədə olan sanitar-epidemioloji tələblərə uyğun olaraq dezinfeksiya edilməsi təmin olunacaq.

### Bu dəfə də 4 mərhələdə

Onu da qeyd edək ki, müsabiqənin təşkilində hər hansı ciddi dəyişiklik yoxdur. Bu il də müsabiqə dörd mərhələdə keçirilir. Artıq qeyd etdiyimiz kimi, elektron ərizələrin qəbulu başa çatıb. Sırada test imtahanı mərhələsidir. Müsahibə və vakant yerlərə yerləşdirilmə ilə müsabiqə başa çatacaq. Müsabiqədə pedaqoji və ya idarəetmə ixtisas sahələri üzrə ali təhsili, 5 ildən az olmayaraq (təhsilin təşkili və idarə olunması ixtisası üzrə elmi dərəcəsi və elmi adı olduqda 3 il) pedaqoji stajı olan və hazırda ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan şəxslər iştirak edirlər.

İmtahan mərhələsində namizədlərə əmək, təhsil qanunvericiliyi və məntiq üzrə 60 test tapşırığı təqdim olunacaq. Test imtahanı zamanı toplanılan bal yalnız müsahibə mərhələsində iştirak üçün keçərlidir. Dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə keçid balı namizədlərin test imtahanında göstərdiyi nəticələr və vakansiyaların sayı nəzərə alınmaqla müəyyən edilir.

Test imtahanı mərhələsinin keçiriləcəyi tarix hələlik bəlli olmasa da, prosesin təqvim ilinin sonunadək tamamlanması gözlənilir. Direktor vəzifəsinə qalan boş yerlərə təyinatlar gələn il də davam edəcək.

### Builki yenilik

Onu da nəzərinizə çatdıraq ki, direktorların işə qəbulu müsabiqəsinə qatılanlara kömək məqsədilə bu ildən bir sıra addımlar atılıb. Belə ki, Təhsil Nazirliyinin rəsmi internet səhifəsinə bu müsabiqədə istifadə ediləcək proqram və test nümunələri yerləşdirilib. Ən çox verilən suallar və cavabları, izahlı test tapşırığı nümunələri, test imtahanı və müsahibə mərhələsi üzrə müsabiqə proqramı genişləndirilərək sayta yerləşdirilib. Hər sual proqram üzrə bir və ya bir neçə ədəbiyyatı əhatə edir.

# "World Skills International" təşkilatına üzvlüyə son hazırlıq

Azərbaycanın "World Skills International" (WSI) təşkilatına üzvlüyünün rəsmiləşdirilməsi üzrə son tədbirlər həyata keçirilməkdədir.

Ötən həftə Təhsil naziri Emin Əmrullayevin iştirakı ilə WSI təşkilatının rəhbər heyəti arasında təşkilata üzvlük istiqamətində onlayn görüş baş tutub. Bu görüşün davamı olaraq Peşə Təhsili üzrə Dövlət Agentliyinin nümayəndələri ilə görüşlər keçirilib.

Görüşlər zamanı WSI təşkilatının fəaliyyət prinsipləri, standartları, eyni zamanda peşə yarışlarının keçirilmə qaydaları və prosedurları barədə Azərbaycan tərəfinə ətraflı məlumat verilib.

Qeyd edək ki, WSI dünyada peşə bacarıqlarını təbliğ edir və peşələrin Olimpiadası kimi tanınır. Azərbaycanın sözügedən təşkilatın 85-ci üzvünə çevrilməsi və cari ilin oktyabr ayında baş tutacaq Təşkilatın Ümumi Yığıncağına qatılması, beləliklə üzvlüyün təsdiqlənməsi gözlənilir.

# 4157 vakant yerdən 730-u tutuldu

Ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə növbəti yerləşdirmə başa çatıb. Bu əlavə yerləşdirmədə oktyabrın 2-dən 5-i saat 23:59-dək müddətdə şəxsi səhifələrinə daxil olaraq vakant yer seçən və elektron ərizələrini təsdiqləyənlər iştirak edib. Onlara boş qalan vakant yerlərlə yanaşı, yeni yaranan 4000-dən çox vakant yer təqdim olunub.

Beləliklə, 2020-2021-ci tədris ili üzrə müəllimlərin işə qəbulu müsabiqəsinin 2-6 oktyabr tarixlərində keçirilən vakansiya seçimi mərhələsinin nəticələrinə görə, müsabiqəyə çıxarılan 4157 vakant yerdən 730-u tutulub. Təhsil Nazirliyi həmin yerləri tutan namizədlərə xəbərdarlıq edib ki, onlar oktyabrın 12-i saat 18:00-dək zəruri sənədləri aidiyyəti yerli təhsili idarəetmə orqanına təqdim etməlidirlər. Çünki qeyd olunan tarixədək sənədlərini müvafiq yerli təhsili idarəetmə orqanına təqdim etməyən şəxslər tutduğu vakant yerdən imtina etmiş hesab olunacaqlar.

Xatırladaq ki, yerli təhsili idarəetmə orqanına təqdim ediləcək sənədlər siyahısına şəxsiyyəti təsdiq edən sənəd, ali və ya orta ixtisas təhsili haqqında sənəd və ona əlavənin surəti ilə yanaşı, varsa, əmək kitabçasının əsli, 4 ədəd fotoşəkil, sağlamlıq haqqında arayış, kadrlar uçotunun şəxsi vərəqəsi, şəxsi səhifədə işə qəbulun nəticəsinə dair çıxarış da daxildir.

Məlumat üçün qeyd edək ki, bu müsabiqənin əsas və əlavə yerləşdirilmə mərhələsinə ümumilikdə 9562 vakant yer çıxarılıb və 6417 namizəd işə qəbul edilib.

# Tələbələrin və təhsil müəssisələrinin nəzərinə!

Təhsil Nazirliyi bildirir ki, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və orta ixtisas təhsili müəssisələrinə cari tədris (2020-2021-ci) ilində qəbul olunmuş tələbələrin təhsil müəssisələrində qeydiyyatı Dövlət İmtahan Mərkəzi tərəfindən oktyabrın 12-dək uzadılıb.

Bildiyiniz kimi, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və orta ixtisas təhsili müəssisələrinə cari tədris ilində qəbul olunmuş tələbələrin təhsil müəssisələrində qeydiyyatı üçün Təhsil Nazirliyinin *https://e-telebe.edu.az/* elektron portalı fəaliyyət göstərir. Göstərilənləri nəzərə alaraq tələbələrin təhsil müəssisələrində qeydiyyatının aparılması üçün *https://e-telebe.edu.az/* elektron portalına müraciət etmələri xahiş olunur.

Məlumat üçün bildirək ki, *https://e-telebe.edu.az/* elektron portalı vasitəsi ilə təhsil müəssisələrində birinci kurs tələbələrinin qeydiyyatı prosesində onların sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olub-olmaması avtomatik qaydada müəyyən edilir. Həmin tələbələrin 2020-2021-ci tədris ilinin payız semestri üçün təhsil haqqı xərclərinin ödənilməsi ilə bağlı informasiya sisteminə təkrar müraciət etmələrinə ehtiyac yaranmır.




# Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!

# "İstər yarışda, istərsə də cəbhədə düşmənlə qarşılaşmağa hazıram"

**AZƏRBAYCAN** ordusu bu gün tarixin ən şanlı günlərini yaşayır. Azərbaycanın 30 ilə yaxın işğal altında olan 20 faiz torpaqları rəşadətli ordumuz tərəfindən düşmən tapdağından azad edilir. Azərbaycan dünyanın sayılıb-seçilən dövlətlərindən biridir. Bu dövlətin vətənpərvər övladlarının cəsarəti və qəhrəmanlığı sayəsində torpağımızın bir qarışı da mənfur düşməndə qalmayacaq. Bu fikirləri "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində sərbəst güləş üzrə üç qat Avropa və dünya çempionu, baş leytenant Hacı Əliyev bildirib. "Vətən dedikdə, biz yalnız müəyyən sərhədləri olan bir torpaq sahəsi başa düşmürük. Vətən bizim üçün ilk növbədə anadır. Çünki o, bizi bir ana kimi öz qoynunda bəsləyir, boya-başa çatdırır. Biz bu torpağın havasını udur, suyunu içir, çörəyini yeyirik. Azərbaycan bizim hamımızın ümumi vətənidir", - deyərək söhbətə körpü saldı.

*Hacı Əliyev, 3 qat dünya və Avropa çempionu*

## "10 erməni idmançısı ilə qarşılaşmışam və hər dəfə böyük hesabla qalib gəlmişəm"

**Rəşad ZİYADOV**

*- Vətənpərvər idmançı kimi indiyə qədər iştirak etdiyin yarışlarda neçə erməni güləşçisi ilə qarşılaşmısan. Həmin qələbələrini necə xatırlayırsan?*

- Vətənin bayrağı yüksəklərə qalxıb, himnimiz səslənirsə bu, qürurverici bir hissdir. Xüsusən də ermənilər üzərində qələbə qazanmaq olduqca xoşbəxt anlardır. Bu günə qədər 10 erməni idmançısı ilə qarşılaşmışam. Və hər dəfə böyük hesabla qalib gəlmişəm.

*- Sənə ehtiyac yarandığı halda müharibəyə getməyə hazırsanmı?*

- Bəli, müharibəyə getmək istərdim. Çünki Vətənin müdafiəsinə hər an hazır olmalıyam. Bir idmançı kimi istər yarışda və istərsə də cəbhədə düşmənlə qarşılaşmağa hazıram. Mən qeyd etmək istərdim ki, Azərbaycan Respublikası Sərhəd Qoşunlarının baş leytenantıyam. Bir hərbiçi kimi də Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etməyə hər an hazıram".

Oktyabrın 7-də ölkəmizin tanınmış idmançıları ilə birlikdə Mingəçevir və Göygöldə olan əsgərlərimizlə görüşdük. Əsgərlərimizin döyüş əzmi və qələbə ruhu çox yüksəkdir. Onlarla vətənpərvərlik mövzusunda söhbətlər apardıq, həmişə yanlarında olduğumuzu bildirdik.

"Fürsətdən istifadə edib Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev başda olmaqla bütün xalqımızı bu gözəl qələbələr münasibəti ilə təbrik edirəm. Çox az bir zaman qalıb ki, biz torpaqlarımızı tamamilə azad edək. Məcburi köçkünlərimizə gözaydınlığı vermək istəyirəm ki, şükürlər olsun ki, onlar öz yurdlarına və torpaqlarına qayıdacaqlar. Biz bu qələbələrimizlə, mərdlik və igidliyimizlə bütün dünyaya səs saldıq ki, Azərbaycan ordusu öz torpaqlarını azad etməyə qadirdir".






## Cəbrayıl rayonunun təhsil statistikası

Bu gün Azərbaycan Ordusu ərazi bütövlüyümüzün bərpası uğrunda uğurlu hərbi əməliyyatlar həyata keçirir. Bu əməliyyatlar nəticəsində Cəbrayıl şəhəri və rayonun bir sıra kəndləri də işğaldan azad olunub.

Cəbrayıl rayonunun təhsil statistikasını təqdim edirik.

# Orduya dəstək!

## Zəfər sənindir, Azərbaycan əsgəri!

### Təhsil Nazirliyindən

Təhsil Nazirliyi işğal altında olan torpaqlarımızın azadlığı, Vətənin bütövlüyü uğrunda mübarizə aparan Azərbaycan Ordusuna dəstək məqsədilə Silahlı Qüvvələrə Yardım Fonduna 50000 manat pul ayırıb.

Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlardan qürur duyuruq.

Qeyd edək ki, Silahlı Qüvvələrə Yardım Fondunun yaradılmasında əsas məqsəd Silahlı Qüvvələrin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirməkdir.

Zəfər sənindir, Azərbaycan əsgəri!

### BDU-dan

Bakı Dövlət Universitetinin (BDU) Elmi Şurasının iclası keçirilib. İclasda çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun erməni hərbi birləşmələrinə qarşı həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində işğal altında olan bir sıra kəndlərimiz, vacib yüksəkliklər və əlverişli ərazilər azad edilib.

Rektor qeyd edib ki, mənfur düşmənin təcavüzkar əməllərinə baxmayaraq, şanlı Ordumuzun uğurlu döyüşləri nəticəsində torpaqlarımızın azad olunması, düşmən üzərindəki qələbələr xalqda böyük ruh yüksəkliyi yaradıb: "Bu gün hər bir Azərbaycan vətəndaşının ürəyi müzəffər ordumuzla döyünür. Səbirsizliklə qələbələrin davamını və Böyük Qələbə gününü gözləyirik; əminik ki, o gün çox yaxındır".

Sonra çıxış edənlər Azərbaycanın haqq mübarizəsindən, Ordumuzun qələbələrindən, Azərbaycan Prezidentinin qətiyyətli siyasətindən söz açıb, BDU-nun professor-müəllim heyətinin hər an Ali Baş Komandanın, şanlı Ordumuzun yanında olduğunu bildirib, cəbhə üçün, qələbə üçün bütün qüvvələrin səfərbərliyini qeyd ediblər.

Elmi Şurada Silahlı Qüvvələrə Yardım Fonduna 200 min manat yardım edilməsi qərara alınıb.

### ADNSU-dan

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) Ermənistanın Azərbaycana yönəlik hərbi təxribatlarına qarşı əks-hücum əməliyyatları keçirən Milli Ordumuza dəstək məqsədilə Silahlı Qüvvələrə Yardım Fonduna 50000 manat vəsait köçürüb.

Universitetdən bildirilib ki, Azərbaycan əsgər və zabitlərinin göstərdikləri fədakarlıq, qəhrəmanlıq, xalqımızın nümayiş etdirdiyi möhkəm birlik, həmrəylik hər bir vətəndaşda qürur və fəxarət hissi yaradır, qələbəyə olan inamı möhkəmləndirir.

### BMU-dan

Bakı Mühəndislik Universitetinin (BMU) Elmi Şurasının iclası keçirilib. İclasda çıxış edən BMU-nun rektoru, professor Havar Məmmədov bildirib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni şanlı tarixinin növbəti səhifəsi yazılır. Rektor mənfur düşmənin heç bir insanlığa sığmayan təcavüzkar əməllərinə, mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətməsinə baxmayaraq, Azərbaycan Ordusunun düşmənə ağır zərbələr vurduğunu, uğurla irəliyə gedərək əzəli torpaqlarımızı işğaldan azad etdiyini söyləyib.

Azərbaycan Ordusunun öz missiyasını bundan sonra da uğurla icra edəcəyinə, tezliklə ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağına əminliyini vurğulayan H.Məmmədov Vətən uğrunda şəhid olan qəhrəman əsgərlərimizə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

İclasda qeyd olunub ki, Milli Ordunun maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəm olmasına və hərtərəfli təmin edilməsinə baxmayaraq, respublikada fəaliyyət göstərən müxtəlif şirkətlər, qurumlar, fiziki və hüquqi şəxslər, bütövlükdə ölkə ictimaiyyəti orduya hərtərəfli dəstək göstərir, Silahlı Qüvvələrə Yardım Fonduna vəsaitlər köçürürlər. Bildirilib ki, Azərbaycan ərazisinin bütövlüyü və təhlükəsizliyi naminə Ordumuza dəstək məqsədilə mövcud vəziyyətdə atılan bu addımlar təqdirəlayiqdir.

İclasda Silahlı Qüvvələrə Yardım Fonduna 50 min manat vəsait köçürülməsi barədə yekdil qərar qəbul olunub.

### ADU-dan

Azərbaycan Dillər Universitetinin (ADU) kollektivi Ermənistanın hərbi təcavüzünün qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün şanlı Ordumuzun həyata keçirdiyi zəruri əkshəmlə tədbirlərinə dəstək olmaq məqsədi ilə könüllü olaraq Silahlı Qüvvələrə Yardım Fonduna 52340 manat vəsait köçürüb.

Universitetdən bildirilib ki, əsgər və zabitlərimizin fədakarlığı, yenilməz döyüş əzmi və qazandığı uğurlar xalqda böyük ruh yüksəkliyi yaradır və tezliklə möhtəşəm Qələbə bizim olacaq!

### SDU-dan

Sumqayıt Dövlət Universitetinin (SDU) əməkdaşları tərəfindən işğal altında olan torpaqlarımızın azadlığı, Vətənin bütövlüyü uğrunda mübarizə aparan Azərbaycan Ordusuna dəstək məqsədilə Silahlı Qüvvələrə Yardım Fonduna 52000 manat vəsait köçürülüb.

Universitetdən bildirilib ki, ali məktəbin hər bir əməkdaşı ordumuza maddi və mənəvi dəstək olmağı özünə borc sayır, Azərbaycan əsgəri ilə qürur duyur və möhtəşəm Qələbəyə inanır!

### AzTU-dan

Sentyabrın 27-də saat 06:00 radələrindən başlayaraq işğalçı Ermənistanın növbəti təxribatının qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi və torpaqlarımızın işğaldan azad olunması uğrunda Milli Ordumuzun həyata keçirdiyi əks-hücum əməliyyatına dəstək məqsədilə Azərbaycan Texniki Universiteti (AzTU) də ölkədə fəaliyyət göstərən digər qurumlar kimi Silahlı Qüvvələrə Yardım Fonduna dəstək kampaniyasına qoşulub.

Universitetdən bildirilib ki, AzTU Silahlı Qüvvələrə Yardım Fonduna 76000 manat ianə edib.

### BSU-dan

Bakı Slavyan Universiteti (BSU) Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna 20000 manat vəsait köçürüb. Bu barədə BSU-dan məlumat verilib. Bildirilib ki, universitetin rektoru, professor Nurlana Əliyevanın müvafiq əmr və tövsiyəsinə uyğun olaraq milli orduya maddi dəstək addımı atılıb.

Qeyd edilib ki, universitet könüllü şəkildə bu vacib aksiyaya qoşulmaqla xalqla, dövlətlə birlik və həmrəylik, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan Ordusuna mənəvi baxımdan dəstək nümayiş etdirir.

### AzMİU-dan

Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna 50000 manat vəsait köçürüb.

Universitetdən bildirilib ki, bu barədə AzMİU-nun Elmi Şurasının dünən keçirilən növbədənkənar iclasında qərar verilib. Elmi Şura üzvlərinin iclasda qəbul etdikləri qərar layihəsində qeyd olunur ki, torpaqlarımızın erməni işğalından azad edilməsi, Vətənimizin bütövlüyü uğrunda döyüşən qəhrəman ordumuza maddi və mənəvi dəstək olmaq hər bir vətəndaşın mənəvi borcudur. "Ordumuza, cəbhədə, Qarabağda tarix yazan mərd oğullarımıza dəstək olmaq bizim üçün qürurdur, böyük şərəfdir! Biz böyük zəfərlər astanasındayıq. Yolumuz haqq yoludur və inanırıq ki, qələbə bizimlədir!"-deyə universitetin mövqeyində bildirilir.

### GDU-dan

Gəncə Dövlət Universiteti (GDU) hazırda cəbhə bölgəsində erməni hərbi birləşmələrinə qarşı əks-hücum əməliyyatları həyata keçirən Milli Ordumuza dəstək məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna 52 min manat vəsait köçürüb.

"İşğal olunmuş Azərbaycan torpaqları uğrunda gedən döyüşlər ordumuzun uğurları ilə davam edir. Düşmən üzərindəki qələbələr xalqımızda böyük ruh yüksəkliyi yaradıb. Vətən müharibəsi başlayandan orduya dəstək məqsədilə xalq səfərbər olur. Ölkəmizdə fəaliyyət göstərən hökumət və qeyri-hökumət təşkilatları, şirkətlər, eləcə də ali təhsil müəssisələri Silahlı Qüvvələrə Yardım Fonduna ianələr etməklə, ordumuza və dövlətimizə dəstək kampaniyasını həyata keçirirlər" - deyə GDU-nun məlumatında bildirilir.

### LDU-dan

Lənkəran Dövlət Universitetinin (LDU) Elmi Şurasının qərarı ilə universitetin kollektivi adından Silahlı Qüvvələrə Yardım Fonduna 20000 manat vəsait köçürülüb.

Universitetdən verilən məlumata görə, Elmi Şuranın onlayn keçirilən iclasında iştirakçılar birmənalı olaraq bildiriblər ki, erməni qəsbkarları ilə gərgin döyüşlərin getdiyi hazırkı dönəmdə bu addımı atmaq vacibdir və Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə peşəsindən asılı olmayaraq, hər bir vətəndaşın, hər bir qurumun üzərinə böyük məsuliyyət düşür.

Bildirilib ki, LDU-nun kollektivi indiki məqamda öz üzərinə düşən məsuliyyəti dərk edərək bu addımı atır, gələcəkdə də Milli Ordumuza maddi və mənəvi dəstək olmağa hazırdır.

Qeyd edək ki, torpaqlarımızın azadlığı üçün ordu sıralarına qoşulanlar arasında LDU-nun əməkdaşları da var və onlar bu günlərdə ön cəhbədə döyüşərək Vətənə olan borclarını ləyaqətlə yerinə yetirirlər.




# Yaşasaydılar, MÜƏLLİM olacaqdılar

## Böyüməyib, Böyük Vətən Müharibəsinin məktəbli ŞƏHİDi oldular

İki şəhid bala, iki şəhid məktəbli. Hər biri bir ailənin sevinci, hər biri bir ailənin gülüşü. Hərəsi böyük bir dünyaydı. Özü boyda demirik, çünki özündən böyük bir dünyası vardı hər birinin. Dünyaları yıxıldı. İki fidanın xəyallar, arzular, planlarla dolu ömrü yarımçıq qaldı. Halbuki onlar da böyümək istəyirdilər. Hədəfləri vardı. Müəllim olacaqdılar. Fidan sinfə girib şagirdlərinə həyatda ağla qaranı seçməyi, Şəhriyar isə qarmonun ağla qara dillərini öyrədəcəkdi. Ağla qara...

İkisinin də həyatında çoxlu, saysız-hesabsız rənglər vardı. Birdən-birə o rəngli dünya ağ-qaraya çevrildi. Getdikcə ağı da azaldı, bütün dünya qaraldı...

Bir neçə saniyənin içində dəyişdi dünyanın rəngləri. Böyük bir gurultudan sonra. O gurultunu eşitdilərmi, bilmirik. O gün, axşamüstü saat 5 radələrində qopan və bir andaca bir ailənin 5 üzvünün dünyasını dəyişdirən hadisədən həmin 5 nəfərdən hansı xəbər tutdu? Kim eşitdi o həngaməni? Evlərinə, başlarına nə düşdüyünü hansı bildi, anladı, görəsən?



Ruhiyyə DAŞSALAHLI

### Bir neçə dəqiqənin günahkarı

"Bütün gün hamı bizdə idi. O evdə gün ərzində, demək olar ki, heç kim olmamışdı. Günortadan sonra Şəhriyargil evlərinə getdilər. Fidan evdə qalmışdı. Qardaşı Elbrusla bir yerdə idilər. Oturmuşdular evdə. Sonra evdən necə çıxdığını bilmədim. Bir neçə dəqiqənin günahkarı oldu Fidan da".

İndi 14 yaşlı qızı ilə bağlı danışmağa söz belə tapmayan anası Təranə xanım o günü belə xatırladı. Qızının ölümündən bir neçə gün sonra ağlında qalan, gözünün önündən getməyən xatirələr hələ də ona anlaşılmaz gələn o bir neçə dəqiqədən ibarət idi. Axı, o an erməni artilleriyasının hədəfinə çevrilən o evdə olmaya bilərdilər... Bütün gün bir yerdə olan Qurbanovlar ailəsi digər qardaşa aid olan o evə qayıtmaya da bilərdi. Çox da ki, bu, onların öz evi idi... İnsan təhlükənin onu məhz onun üçün ən təhlükəsiz saydığı yerdə - evində tapacağını hardan bilsin ki?! Şəhriyarın 4 nəfərdən ibarət ailəsinin yaşadığı ev idi erməni topunun hədəfindəki o ev. Bəs, Fidan niyə ordaydı? Axı, hərbçi əmisinin ailəsi, nənə-babası bütün gün onun evində olmuşdu o gün. Bir yerdəydilər Şəhriyarla. Fidanı onun yanına sürükləyən nə idi? Ölümmü?

Bəlkələr, beynini gəmirən ehtimallar gözlərini elə qapayıb ki, onları aralayıb düşüncələrində, xatirələrində qızına aid nələr qaldığını tapa bilmir anası Təranə xanım: "Nə danışım ki, onlardan. Ağlıma heç nə gəlmir. Bircə onu bilirəm ki, ikisi də həyat doluydu. Səs-küy vardı onların olduğu yerdə. İndi yoxdular, evimizin səsi-küyü, nəşəsi də yoxdu. Gülüş onlarla bir yerdə getdi həyatımızdan".

İki ayrı evdə böyüyən iki sevgidolu uşaq. Şıltaqlıqları ilə qaldı xatirələrdə ikisi də. Top atəşi təbəssümü də, həyata qarşı marağı da çöhrələrində dondurdu. Şəhriyarla Fidan ailənin digər 3 üzvü - Şəhriyarın anası, nənə və babaları ilə birgə ayrıldı bu dünyadan.

Sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin atəşə tutduğu yaşayış məntəqələrindən biri də məhz Naftalan şəhərindəki o ev idi. Qurbanovlar ailəsinin yaşadığı həmin evdə bir ailə həlak oldu. Onlardan ikisi məktəbli idi. 2006-cı il təvəllüdlü Fidan Qurbanova ilə 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov.

### Fidanın 10 barmağında 10 qabiliyyət

Anası deyir ki, dərslərində daha yaxşı nəticələr göstərirdi. Tələbə olmağı çox istəyirdi. Ən önəmlisi özünü tanıyır, nəyə qadir olduğunu bilirdi. Müəllim olacağını deyirdi. Bunun üçün də əlavə məşğələlərə gedib daha yaxşı hazırlaşmaq istəyirdi.

Təranə Qurbanova qızı ilə Şəhriyarın arasındakı bağlılıqdan da danışır: Biri-birindən heç ayrılmırdılar. Sadəcə





əmiuşağı deyildilər. Şəhriyar Fidanın dostu, sirdaşı idi. Ən çox onunla vaxt keçirirdi. Elə bir yerdə də getdilər".

Çox bacarıqlı idi, Fidan. Rəsm çəkir, maraqlı fiqurlar düzəldir, tikmələr tikirdi: "Mənim belə şeylərə həvəsim yoxdu. O, xalasına oxşamışdı. Tikir, düzəldir, əl işlərinin şəklini xalasına yollayır, onun fikrini, məsləhətini alırdı. Çox həvəsliydi. Həmişə gülürdü. Ona deyirdim ki, az gülsün. Ancaq xeyri yoxuydu. Onun da mənə iradları olurdu. Mənə "özünü müdafiə etməyi bacarmalısan", - deyirdi.

Ancaq özü-özünü müdafiə edə bilmədi. Təkbətək, üz-üzə savaş deyildi ki, özünü qorusun. Bir xainin, qorxağın meydanda üz-üzə gələ bilmədiyi rəqibinə qarşı uzaqdan-uzağa atdığı, atıb qaçdığı bir daş idi, təsadüfən gözümüzə dəyən daş...

### "Sinfin inzibatçısı o idi"

Müharibə və təsadüf. Nə qədər qəribə səslənsə də, işğalçıdan gələn bəlada bir təsadüf axtardı onu tanıyanlar, sevənlər. Təsadüfə bir bax! Təsadüf bütün gün bir yerdə olan Qurbanovların onlara məxsus bir evdən o birinə getməsiydimi? Heç Fidanın əmisigildə olmağında da təsadüf yox idi. Fidanın sinif rəhbəri, Z.Rüstəmov adına Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbinin biologiya müəllimi Kəmalə Şahmuradova təsadüfü topun o evə, hətta o kəndə düşməyində axtarıb: "Savaş başlayandan bəri heç vaxt Qaşaltı Qaraqoyunluya top düşməmişdi. Başqa kəndlərimizə, şəhərə düşmüşdü. Ancaq Qaşaltı Qaraqoyunlu kəndində bu, olmamışdı. Görünür, əvvəlki topun hara düşdüyünə baxmaq üçün hamısı evin girişinə yığışıblar. Təsadüfən kəndə düşən top onların evinə düşüb və hamısı bir yerdə olduğundan heç biri xilas ola bilməyib".

Kəmalə müəllim Fidanı V sinifdən tanıyır. Dediyinə görə, şagirdi təhsilində çalışqanlığı, məsuliyyəti ilə təsadüflərə heç şans buraxmayıb: "V sinifdən onun sinif rəhbəriyəm. Biologiya fənnini də onlara mən tədris edirəm. Ağıllı, tərbiyəli, çalışqan şagirdlərimdən idi. Mart ayından onlayn dərslər keçirilir. Sinif yoldaşları interneti tez-tez bəhanə edib aradan çıxmağa çalışsa da, Fidanın bəhanə irəli sürdüyünü görmədim. Onlayn dərslərin təşkili üzrə sinfin inzibatçısı o idi. Sinif yoldaşlarına da onu nümunə göstərirdim. Kənddə internet yoxdusa, qoy, Fidanda da olmasın, deyirdim. Biologiyanı yaxşı oxuyurdu. Bu fənnə qarşı çox həvəsliydi".

### Əynində hərbi geyim, əlində qarmon, dilində "Sıravi Əhməd"!

Kəmalə Şahmuradova Şəhriyarın da müəllimi olub: "Həyat bilgisi" fənnindən dərs demişəm. Çox tərbiyəli uşaq idi. Gücü çatdığı qədər tapşırıqları yerinə yetirməyə çalışırdı. Ancaq daha çox musiqiyə həvəs göstərirdi".

22 ilin müəllimi, Şəhriyarın sinif rəhbəri İlhamə Mustafayeva isə onun gözlərini, sakit baxışlarını unuda bilmir: "Çox sakit, üzüyola uşaq idi. II partada otururdu. İndiyədək ondan heç kim şikayət etməmişdi. Naftalan şəhər musiqi məktəbində oxuyurdu. Bütün tədbirlərimizdə fəal iştirak edirdi. Qarmonda çalıb oxuyurdu. Xocalı faciəsinin ildönümü ilə bağlı məktəbimizdə keçirilən tədbirdə Fidan da, o da çox fəal iştirak elədilər. Fidan qara kəlağayıda şeir dedi, Şəhriyar hərbi geyimdə qarmonda ifa elədi. Ümumiyyətlə, onsuz hər hansı tədbirimizi təsəvvür edə bilmirəm".

Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbin tədris hissə müdiri Arifə Bağırova da Şəhriyarı tədbirlərdən tanıyır: "Məktəbimizin tədbirlərində ikisi də çox fəal iştirak edirdi. Şəhriyarı "Sıravi Əhməd" mahnısı ilə xatırlayıram. Ən çox onu oxuyardı. Ancaq Fidanın Azərbaycan dili və ədəbiyyat fənni üzrə müəllimi idim. Bu fənn üzrə imtahanlarını verə bilməsi üçün əlavə hazırlıq da keçirdim. Hazırlıqlara başlayandan xeyli dönüş yaranmışdı, bilik səviyyəsini çox inkişaf etdirmişdi.

Bibisi Təranə də Şəhriyarı əlində qarmonla xatırlayır: "Şəhriyar qarmonu sevirdi. Qarmonda ifa etməyi bacarır, bu istiqamətdə musiqi təhsili alırdı. Qarmon müəllimi olacaqdı".

### Onlar Böyük Vətən Müharibəsinin şəhidləridir

Fidanla Şəhriyar da yazdırdı adını o siyahıya. Ərazi bütövlüyümüz uğrunda apardığımız müharibənin ilk qurbanları deyil onlar. Bu savaşda itirdiyimiz ilk uşaqlar, ilk məktəblilər az deyil. Onların ünvanı şəhidlikdi. Qanı ilə tarix yazan, torpağı vətənə çevirən ŞƏHİD! O şəhid ki, bir qatil gülləsinə qurban gedərkən boyundan, yaşından böyük missiya yerinə yetirir, qanı ilə tarix yazır. Böyük Vətən Müharibəsinin məktəbli şəhidləri də məhz belə etdilər. Bir ailənin gülüşü, sevinci ikən, böyük bir tarixi keçmişi olan millətin itkisi oldular.

"Mənə deyirlər, o cür uşağı necə qoydun torpağa?", - deyir Fidanın anası, Şəhriyarın bibisi Təranə xanım. Yarası hələ təzə olan bir ana nə cavab verə bilər ki? Axı, bildiyimiz, yanıb-yaxılıb verdiyimiz bir sualdır bu. Cavabı da bəllidir: "Torpaq" dediyimiz Vətəndi. Onları da əvvəlkilər kimi Vətən torpağına əmanət etdik. Yerində yeni fidanlar cücərsin deyə.

Yeni mənzilin mübarək, ŞƏHİD bala. Ruhun şad, yerin cənnət olsun. Qanın yerdə qalmayır!



## Mübariz İbrahimovun düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb

**Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb.**

**Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, artıq həmin postda Azərbaycan Bayrağı dalğalanır.**

**Xatırladaq ki, Mübariz İbrahimov təmas xəttində Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alarkən qəhrəmancasına həlak olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə Mübariz İbrahimova ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilib.**

# Biz öz doğma dədə-baba torpaqlarımıza qayıdacağıq

## Təhsil işçiləri torpaqlarımızın tezliklə işğaldan azad olunacağına əmindirlər

**Niyazi RƏHİMOV**

Sentyabrın 27-dən başlayaraq Azərbaycana qarşı yenidən təxribat törədən Ermənistan ordusu bir sıra yaşayış məntəqələrimizi atəşə tutmuşdur. Bu təxribatın qarşısını almaq məqsədilə Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlayaraq işğal altında olan bir sıra yaşayış məntəqələrini, strateji yüksəklikləri azad edib, düşmənin canlı qüvvəsinə sarsıdıcı zərbələr endirib.

Lakin irgənc əməllərindən yenə də əl çəkməyən ermənilər beynəlxalq prinsipləri pozaraq dinc əhalini hədəfə alır, onları qətlə yetirir. Təəssüf hissi və ürək yanğısı ilə qeyd edirik ki, həyatını itirənlər arasında iki azyaşlı məktəbli də var. Bütün bunlar ermənilərin nə qədər qəddar, amansız bir xalq olduğunu bir daha sübut edir.

Lakin ermənilər nə qədər təxribat törətməyə cəhd etsələr də ordumuz tərəfindən layiqli cəzalarını alırlar.

Cəbhəboyu ərazilərdəki təhsil işçiləri ordumuzun apardığı hərbi əməliyyatlara öz münasibətlərini bildirərək qələbə əzmini nümayiş etdirirlər. Onlar tezliklə torpaqlarımızın işğaldan azad olunacağına ümidvar olduqlarını deyirlər.

### "Hər bir şagirdimizdə döyüş ruhu çox yüksəkdir"

Tərtər rayonu Umudlu kənd tam orta məktəbinin gənclərin çağırışaqədərki hazırlığı rəhbəri, keçmiş döyüşçü *Rəhman Paşayev* xalqımızda olan ruh yüksəkliyindən danışıb. O, hər bir Azərbaycan vətəndaşının ordumuza güvəndiyini bildirib: " Bildiyiniz kimi biz tərtərlilər uzun illərdir ki, müharibə şəraitində yaşayırıq. Şagirdlərimiz də məcburi olaraq bu mühitə adaptasiya olub. Təəssüflər olsun ki, onlar anadan olandan silah səsi ilə yatıb, silah səsi ilə oyanırlar. Ona görə də ermənilərin törətdikləri təxribatlar bizi qorxutmur. Əksinə, daha mətin, daha əzmli edir. Hər bir şagirdimizdə döyüş ruhu çox yüksəkdir. Yaşları az olmasına baxmayaraq torpaqlarımızın azad olması uğrunda döyüşə hər an qatılmağa hazırdırlar". R.Paşayev son günlər ordumuzun həyata keçirdiyi uğurlu əməliyyatlardan söz açaraq Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında tezliklə zəfər çalacağına inandığını deyir: "Azərbaycan ordusu regionun ən qüdrətli ordusudur. Bunu son günlər həyata keçirilən hərbi əməliyyatlar bir daha sübut etdi. Tezliklə bayrağımızın bütün işğal altında olan torpaqlarımızda dalğalanacağına inanıram".

### "Azad olunmuş torpaqlarımızda təmənnasız dərs deməyə hazıram"

Tərtər rayonu Köçərli kənd tam orta məktəbinin coğrafiya müəllimi *Qaragöz Heydarlı* təmas xəttinə yaxın ərazidə yaşayan əhalidəki ruh yüksəkliyindən danışıb. Tezliklə torpaqlarımızın azad olunması arzusunda olduğunu deyən Q.Heydarlı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında tarixi qələbələrə imza atan rəşadətli ordumuza çox güvəndiklərini bildirib. Goranboy rayonunun cəhbə bölgəsindən olan gənc müəllim MİQ müsabiqəsində 49 bal toplayaraq Tərtərdə çalışdığını, artıq neçə ildir ki, müharibə şəraitində yaşadıqlarını deyir. O, tezliklə qələbə qazanacağımızı sözlərinə əlavə edib: "Azərbaycan ordusunun apardığı uğurlu hərbi əməliyyatlar hamı kimi biz müəllimləri də çox sevindirir. Əhvali-ruhiyyəmiz çox yaxşıdır. Cəbhədən sevindirici, xoş xəbərlər gəlir. Torpaqlarımızın tezliklə azad olunacağı günü səbirsizliklə gözləyirəm. Bir müəllim kimi azad olunmuş torpaqlarımızda təmənnasız dərs deməyə hazıram".

### "Ordumuza böyük güvənimiz var"

Ağdam rayonu Üçoğlan kənd tam orta məktəbinin direktoru *Vaqif Quliyev* də ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu hərbi əməliyyatlardan qürurla söz açıb: "Xalqımızda çox böyük ruh yüksəkliyi var. İllərdir düşmənlə üzüzə yaşayırıq və daim ordumuza böyük güvənimiz var. Bir təhsil işçisi kimi düşmən təxribatına qarşı aparılan hərbi əməliyyatlar məni çox sevindirir. İnanıram ki, qısa müddətdə ordumuz zəfər çalacaq. Biz öz doğma dədə-baba torpaqlarımıza qayıdacağıq. İnanıram ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bütün torpaqlarımız işğaldan azad olunacaq. Cənab İlham Əliyev qüdrətli Ali Baş Komandan kimi tarixin yaddaşında əbədi qalacaq. Qətiyyətlə demək istəyirəm ki, bir təhsil işçisi kimi hər an, hər zaman Ali Baş Komandanımızın əmrini gözləyirik".

### "Vətənimiz uğrunda mübarizəyə daim hazıram"

Ağdam rayonu Ayaqqərvənd kənd tam orta məktəbinin X sinif şagirdi *İlahə Cəfərova* da aparılan hərbi əməliyyatlardan məmmunluq hissi keçirdiyini deyir: "Hazırda bir məcburi köçkün kimi cəbhə xəttində olan məktəbdə təhsil alıram. Gözümüzü açandan top-tüfəng səsləri eşidirik. Bu, bizi qətiyyən qorxutmur. Bu günlərin tezliklə arxada qalacağına ümid edirəm. İnanıram ki, rəşadətli ordumuz düşmən tapdağı altında qalan bütün ərazilərimizi azad edəcək. Cəbhədən tez-tez xoş xəbərlər alırıq. Bu, bizi daha da ruhlandırır. Bütün yaşıdlarım kimi mən də vətənimizin müstəqilliyi, suverenliyi uğrunda mübarizəyə daim hazıram".

# 16 ümumtəhsil məktəbinin direktoruna qaydaları pozduğuna görə töhmət verilib

Təhsil Nazirliyi 23 sentyabr tarixindən etibarən ölkə ərazisində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində monitorinq keçirir. Məqsəd Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nın tələblərinə əməl olunması vəziyyətinin yoxlanılmasıdır.

## Ümumi təhsil müəssisələrində monitorinqlər keçirilir

Bu günədək 18-i özəl, 73-ü dövlət ümumi təhsil müəssisələri olmaqla, Bakı və Sumqayıt şəhərlərində, eləcə də Abşeron rayonunda fəaliyyət göstərən (məcburi köçkün məktəbləri daxil olmaqla) ümumilikdə 91 məktəbdə monitorinq aparılıb. Monitorinqin nəticələrinin təhlili göstərir ki, yoxlama aparılmış məktəblərdə əsas qayda pozuntuları müəssisəyə daxil olan şəxslərin müvafiq qaydada hərarətinin ölçülməməsi, müəssisədə müvafiq standartlara cavab verən xüsusi karantin otağının mövcud olmaması, həmçinin sanitar qovşaqlarda maarifləndirici poster və xəbərdaredici nişanların yerləşdirilməməsi ilə bağlıdır.

Aşkar olunmuş qayda pozuntularının sayı və ciddiyyəti nəzərə alınmaqla, 67 dövlət ümumi təhsil müəssisəsi ilə bağlı müvafiq tədbirlər görülüb və nöqsanların aradan qaldırılması üçün onlara vaxt verilib. Bakı şəhərinin 223, 321, 326, 294, 109, 305, 144, 328, 80, 291 nömrəli ümumi təhsil müəssisələrinin, eləcə də Bakı, Sumqayıt və Abşeronda yerləşən Zəngilan rayonu 32, Şuşa rayonu 7 və 9 nömrəli, Kəlbəcər rayonu 13 nömrəli tam orta, Laçın rayonu Biləcəri ümumi orta məktəbi və 10 nömrəli tam orta məktəblərin direktorlarına töhmət verilib, 51 təhsil müəssisəsinin direktoruna isə xəbərdarlıq edilib. Qeyd edək ki, verilmiş vaxt bitdikdən sonra həmin müəssisələrdə təkrar monitorinq keçirilməsi nəzərdə tutulur.

Bununla yanaşı, Bakı şəhəri 245, 239, 27, 211 nömrəli, Şuşa şəhər 3 nömrəli tam orta məktəblərin və Sumqayıt şəhər inteqrasiya təlimli internat məktəbinin qaydalara düzgün əməl edilməsi müəyyən olunub.

Eyni zamanda qayda pozuntuları aşkar olunmuş özəl təhsil müəssisələri ilə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti dövlət orqanlarına məlumat verilib.

Monitorinqin növbəti günlərdə də davam etdiriləcək, qeyd olunan bölgələrlə yanaşı, ölkəmizin müxtəlif regionlarında yerləşən və təsadüfi seçim əsasında müəyyən edilmiş digər məktəblərdə də həyata keçirilməsi planlaşdırılır.

# Pandemiya dövrünün məktəbi

## Uşaqlar burada alışdırıldıqları qaydalara evdə də sadiqdirlər



Ruhiyyə DAŞSALAHLI

Artıq bir neçə aydır ki, dünya ilə birlikdə bir savaş veririk. Amma kiminlə savaşdığını bilmədən savaşırıq bu bəla ilə. Bildiyimiz, sadəcə onun ətrafımızda olduğu, bədənimizə daxil olmaq üçün fürsət gözlədiyi, əlinə keçən hər şansa qucaq açmasıdır. Düşdüyü yeri - insan orqanlarını fəlakət zonasına çevirdiyini də artıq öyrənmişik. Koronavirus ailəsindən olan COVİD-19 adlı bu bəladan qorunmaq üçün öncəliyimiz uşaqlardır. Onlara gözlə görünən düşmənlə olduğu kimi, görünməyən düşmənlə də mübarizə aparmağı öyrətmək bu günlərdə bilməli olduğumuz vacib həqiqətlərdəndir. Bəs, öyrədə bilirikmi?

### "Evimizdə də məktəbdə bizə öyrətdikləri kimi edirik"

Bu sualın cavabını Bakı şəhərindən azacıq uzaqda - Xırdalan şəhərində axtardıq. Şəhərin 2 məktəbində ölkədə davam edən karantin qaydalarının tələblərinin hansı səviyyədə yerinə yetirildiyini, uşaqları necə qoruduqlarını öyrənməyə çalışdıq. Gördüyümüz bu oldu ki, məktəblər şagirdlərə özlərini necə qorumağı öyrədir: "Məktəbə bu il fərqli qaydada başladıq. Keçən il qoyub getdiyimiz kimi deyil məktəbimiz. Sinif yoldaşlarımızla məsafə saxlayırıq, bir-birimizə çox yaxınlaşmırıq. Bizə maska taxmaya da biləcəyimizi deyirlər. Ancaq məktəbimizdə bütün müəllimlərimiz maskadadır. Maska ilə özümüzü və yaxınlarımızı daha yaxşı qoruya biləcəyimizi öyrəndik. Ona görə, xüsusən tənəffüslərdə maskalarımızı taxırıq. Bu qaydalara əməl etməyi artıq öyrənmişik. Evimizdə də məktəbdə bizə öyrətdikləri kimi edirik. Valideynimlə marketə getmirəm. Əllərimi tez-tez yuyuram. Məktəbdə isə ehtiyac duyduqca spirtləyirəm. Sinfimizdə hər zaman spirt olur. Bu qaydalara əməl etmək heç də çətin deyil. Əvvəllər unudurdum. Sinifdə birimiz unudanda o birimiz ona xatırladırdıq. Ancaq artıq alışmışıq. Daha heç birimiz unutmuruq".

Bura Xırdalan şəhərindəki 5 nömrəli tam orta məktəbdir. Məktəbin şagirdi Gülçin Nəcəflinin COVİD-19-u unutmaması heç təəccüblü deyil. Çünki məktəbin həyətindən daxil olduğun andan "gözəgörünməz" adlandırdığımız düşmənin obrazı gözlər önündə canlanır. Görməsən də, ondan özünü necə qoruyacağını istər-istəməz xatırlayırsan. Onunla necə mübarizə aparacağını artıq kiminsə deməyinə ehtiyac yoxdur. Yerdəki xətlərdən düşmənlə mübarizədə uğur qazanmaq üçün əməl etməli olduğun qaydalar aydın görünür. İlk şərt: dostlarınla, sinif yoldaşlarınla



məsafə saxlamalısan. İkinci şərti binaya girən kimi xatırlayırsan. Təbii ki, əlində hərarət ölçən cihazla sənə yaxınlaşmaqda olan məktəblinin dostlarını görəndə. Kim olduğunu soruşmadan öncə bədən istiliyini müəyyənləşdirirlər. Onlar üçün bir qayda var: qapıdan yalnız şagirdlər, müəllimlər, təhsil işçiləri daxil ola bilər. Valideynlər birmənalı olaraq məktəb həyətinə belə buraxılmırlar.

### Məcburi olmasa da, şagirdlərin çoxu maskalıdır

Direktor Şahin Yusifovun sözlərinə görə, artıq məktəbin 3125 şagirdi tələb edilən məsafəni qorumağı öyrənib: "Məktəbimizin 2 girişi var. Hər iki giriş şagirdlərimizin istifadəsindədir. Hər gün 4 əməkdaşımız şagirdlərin məktəbə girişinə nəzarət edir. Məktəbimizdə fəaliyyət göstərən "Məktəblinin dostu" layihəsinin əməkdaşları bu işdə bizə kömək edirlər. Müəssisəmizə 7 hərarət ölçən cihaz verilib. Həmin cihazlarla şagirdlərimizin bədən hərarəti ölçülür. Əlləri spirtlənir və bundan sonra sinfə buraxılırlar. Maska və üz siperlərindən istifadə müəllimlərimiz üçün məcburi olsa da, şagirdlərimizdən belə bir tələbimiz olmur. Ancaq özünüzün də gördüyünüz kimi, məktəbdə şagirdlərimizin də çoxu maskadadır".

### "Təmizliyi pandemiya ilə öyrənməmişik"

Sinif otaqlarında partaların düzülüşü sosial məsafəni bir daha xatırladır. Dərslər saat 8.00-da başlayır. 30 nəfərdən ibarət siniflər A və B qrupuna bölünüb. Qruplar həftənin müxtəlif günlərində dərsə gəlir. Sadəcə V gün hər iki qrup məktəbdə olur. Ancaq günün ayrı-ayrı vaxtlarında. Məktəbin dərs cədvəli dirdan asılıb. Virtual və üz-üzə dərs saatları müəyyənləşib. Məktəbdə dərslər, əsasən ənənəvi qaydada - üz-üzə keçirilir.

Məktəbin 120 nəfər məktəbəhazırlıq qrupu, 330 nəfər birincisi var. Dərslər 45 dəqiqə çəkir. Hər dərsdən sonra siniflər havalandırılır, növbə dəyişəndə xüsusi məhlullarla dezinfeksiya edilir. 2012-ci ildə tikilib istifadəyə verilən 5 nömrəli tam orta məktəbin binası səliqəli, təmizdir. Ş.Yusifovun sözlərinə görə, onlar uşaqlara özünü də, onlara məxsus olanı da qorumağı öyrətməyi bacarıblar. Odur ki, məktəb binasını həm şagirdlər, həm müəllimlər qoruyur. Məktəb öz şagirdlərinə onlara yaradılan imkandan düzgün istifadə etməyi öyrədə bilib: "Məktəbimiz çox yaxşı vəziyyətdədir. Burada səliqə-səhmana və təmizliyə daim əməl edirik. Biz təmizliyi pandemiya ilə öyrənməmişik. Tualetlərimiz hər zaman təmiz olur. Kranlarımızda daim su var. Pandemiya dövründə təmizliklə bağlı hər hansı yeni qayda tətbiq etməmişik. Tualetlərimizdə salfetlər, yuyucu vasitələr olur. Bütün bunlarla bizi Təhsil Nazirliyi təmin edir. Tibbi maskalar, sipərlər, dezinfeksiyaedici vasitələrlə mütəmadi təmin edilirik. Bu istiqamətdə hər hansı çətinliyimiz yoxdur".

5 nömrəli məktəbdə tibb bacısı və izolyasiya olunmuş otaq var. Ş.Yusifovun sözlərinə görə gün ərzində şagird və müəllimlərin səhhətində hər hansı problem yaranarsa, bu otağa gedir: "Virusa qarşı şagirdlərimizlə bərabər, valideynləri də təlimatlandırırıq. Onlarla mütəmadi söhbətlərimiz olur. Pandemiya şəraitində əməl etməli olduğumuz qaydaları onların gözü qarşısında tətbiq edirik. Düşünürük ki, bu, onları da eyni qaydalara əməl etməyə sövq edir".

### 10 nömrəli məktəbdə vəziyyət təlimata uyğun tənzimlənir

Xırdalan şəhərindəki 10 nömrəli tam orta məktəbin həyətində ölkədə pandemiya şəraitinin davam etdiyi aydın görünür. Qayda qaydadır və məktəb buna əməl etməyi şagirdlərinə öyrədib. Artıq ikinci növbənin dərsləri başlayıb. Siniflərdə şagirdlər tək-tək oturub. Müəllimlərin ağzı və burnu maska ilə örtülüdür. Siniflərdə spirtlər qoyulub.

Müəllimlərdən texniki işçilərə qədər hər kəs həm də üz siperindən istifadə edir. 4 giriş-çıxışı olan məktəbdə şagirdlərin həmin girişlərdən ayrı-ayrı vaxtlarda istifadə etmələrinə mütəmadi nəzarət olunur. Dərs saatları sürüşdürmə prinsipi ilə qurulub.

Məktəb bufeti işləmir. Məktəb tualetləri, sadəcə pandemiya dövründə deyil, ondan əvvəl də diqqət mərkəzində olub. Daim müzakirələrə səbəb olan bu məsələyə indi xüsusilə diqqət yetirilir. Tualetlərə maye sabun, nəm və quru salfetlər, tualet kağızı qoyulub.

Təhsil müəssisəsində məktəbəhazırlıq qrupları da təşkil olunub. 113 nəfər azyaşlının təhsilə başladığı məktəbdə onların da rahatlığı və təhlükəsizliyi düşünülüb.

Məktəbin həkimi Xatirə Rəhimova gün ərzində şagirdlərin, sadəcə bədən hərarətinə deyil, ümumiyyətlə, sağlamlığına nəzarət etdiyini deyir. Gün ərzində kabinetdə oturmayaraq vaxtaşırı siniflərə daxil olur, ümumi vəziyyətə nəzarət edir. Onun sözlərinə görə, məktəb pandemiya şəraitində şagirdlərinin tam təhlükəsiz təhsil almasını təmin etmək iqtidarındadır.

10 nömrəli tam orta məktəbin direktoru Elnarə Həsənovanın sözlərinə görə, 1646 şagirdi olan məktəbdə vəziyyət təlimata uyğun tənzimlənir: "Məktəbimizdə təmizliyin təmin olunması, mütəmadi dezinfeksiya işlərinin görülməsi üçün hər hansı çətinliyimiz yoxdur. Bütün bunlar bizə Təhsil Nazirliyi tərəfindən vaxtında və problemsiz çatdırılır. Ötən həftə Gigiyena və Epidemiologiya Mərkəzindən nümayəndələr də məktəbimizdə oldu. Karantin rejimində, ümumiyyətlə, pandemiya şəraitində əməl etməli olduğumuz qaydaların tətbiqi vəziyyətilə maraqlandılar. Hər hansı iradları olmadı".

Məktəb direktorunun sözlərinə görə, qaydalara tam əməl etdikləri nəticələrdən də görünür. Belə ki, indiyədək məktəb şagirdləri və müəllimlər arasında virusa yoluxan olmayıb: "V-IX siniflərin dərsi başlamadan öncə bir şagirdimizin valideyninin virusa yoluxduğu barədə məlumat verilmişdi. Həmin şagirdimiz bir müddət dərslərə qatılmadı. Məktəbimizin şagirdləri və kollektivi arasında indiyədək hər hansı yoluxma qeydə alınmayıb".

### Valideyn: "Mən də evdə Mədinənin mənə qoyduğu bu qaydalara əməl edirəm"

Məktəbdən çıxarkən bir valideynlə qarşılaşırıq. Burada Ramilə Məmmədovanın qızı oxuyur. Dediyinə görə, o da uzaqdan məktəbdə görülən işləri maraqla izləyir: "Məktəbimiz həmişə səliqəli olub. Buradakı təmizlikdən çox razıyam. Xırdalandakı ən yaxşı məktəblərdən biridir məktəbimiz. Burada uşaqlara qaydaları elə təlqin edirlər ki, məktəbdən sonra onlar da bizə nəzarət edirlər. Qızım Mədinə VII sinif şagirdidir. Evdə hər kəsin əlinin təmizliyinə o diqqət edir. Sinifdə alışdıqları məsafəyə evdə də əməl edir. Uşaqlarımızın öyrəndikləri qaydalara məsuliyyətlə əməl etdikləri xoşuma gəlir. Mən də evdə Mədinənin mənə qoyduğu bu qaydalara əməl edirəm".

# 2020-ci ilin Nobel laureatları






**Oruc MUSTAFAYEV**

Ənənəyə uyğun olaraq hər il Stokholmda İsveç Kral Elmlər Akademiyası yanında Nobel Mükafatları Komitəsi elmin ayrı-ayrı sahələri, ədəbiyyat, sülh üzrə Nobel mükafatı laureatlarının adlarını elan edir. İlk olaraq oktyabrın 5-də komitə tərəfindən 2020-ci il üzrə fiziologiya və tibb sahəsində Nobel mükafatı laureatlarının adları açıqlanıb. Yüksək elmi mükafata amerikalı Harvi Olter (ABŞ Milli Səhiyyə İnstitutu), Çarlz Rays (Rokfeller Universiteti) və kanadalı Maykl Houton (Alberta Universiteti) hepatit C virusunun kəşfinə görə layiq görülüblər.

Oktyabrın 6-da Nobel Mükafatları Komitəsi 2020-ci il üzrə fizika sahəsində Nobel mükafatı laureatlarının adlarını açıqlayıb. Yüksək elmi mükafata 2020-ci ildə "qara dəliklər"in formalaşması mexanizmlərinin tədqiqinə görə müxtəlif ölkələrdən olan üç alim - Rocer Penros (Böyük Britaniya), Raynhard Gensel (Almaniya) və Andrea Gez (ABŞ) layiq görülüblər.

Oktyabrın 7-də 2020-ci il üzrə kimya sahəsində Nobel mükafatı laureatlarının adları məlum olub. Mükafat CRISPR/Cas9 genomunun redaktə metodunu kəşf etdiklərinə görə 2 alimə - Cenifer Dudnaya və Emmanuel Şarpantyeye təqdim olunacaq. Oktyabrın 8-də ədəbiyyat sahəsində Nobel mükafatı laureatının adı da açıqlanıb. Mükafat "Fərdin mövcudluğunu özünün asketik gözəlliyi ilə universal edən qüsursuz şair səsinə görə" amerikalı şairə Luiza Qlyuka veriləcək.

## Fiziologiya və tibb üzrə



**Harvi Ceyms Halter** *(Harvey Ceyms Alter)* 12 sentyabr 1935-ci ildə Nyu-Yorkda anadan olub. Amerikalı tibb tədqiqatçısı, virusoloq və həkimdir. ABŞ-ın Roçester Universitetində təhsil alıb və 1956-cı ildə incəsənət üzrə bakalavr, 1960-cı ildə tibb dərəcəsi alıb. 1961-1964-cü illərdə Milli Səhiyyə İnstitutunda klinik adyunkt kimi çalışıb. 1964-1965-ci illərdə Corstaun Universitetinin xəstəxanasında hematoloq kimi işləyib.

1970-ci illərin ortalarında H. Halter və onun tədqiqat qrupu göstərdi ki, transfuziyadan sonrakı hepatit hallarının əksəriyyəti hepatit A və hepatit B virusları ilə nəticələnməyib. Bu iş 1988-ci ildə hepatit C virusunun kəşf edilməsinə səbəb olub. O, hepatitə səbəb olan virusun aşkar edilməsi sahəsində araşdırmalarına görə tanınıb.



**Maykl Houton** *(Michael Houghton)* - 1950-ci ildə Böyük Britaniyada anadan olub. 1972-ci ildə biologiya elmləri üzrə Şərqi İngiltərə Universitetini (East Anglia) bitirib və 1977-ci ildə London Kral Kollecində biokimya üzrə doktorluq dissertasiyası müdafiə edib. 2019-cu ildə East Anglia Universitetinin fəxri doktoru adına layiq görülüb.

Qui-Lim Çu, Corc Kuo və Daniel V. Bredli ilə yanaşı, hepatit genomunu da kəşf edib. Kanadanın Virusologiya İnstitutunun direktoru, Alberta Universitetinin virusologiya professorudur. Karl Landşteynerin (1992), Robert Kox (1993), Uilyam Bomont (1994), Lasker (2000), Heydner Fondunun beynəlxalq mükafatlarına (2013) layiq görülüb. 2013-cü ildə dəyəri 100 min dollar olan Heydner Fondunun mükafatından imtina edən ilk alim olub.



**Çarlz M.Rays** *(Charles M. Rice)* 25 avqust 1952-ci ildə ABŞ-ın Sakramento ştatında anadan olub. ABŞ virusoloqudur. 1974-cü ildə Kaliforniya Devis Universitetində zoologiya üzrə bakalavr, 1981-ci ildə Kaliforniya Texnologiya İnstitutunda biokimya üzrə fəlsəfə doktoru elmi dərəcələri alıb. 1986-cı ildə Vaşinqton Universitetinin tibb fakültəsində dosent kimi fəaliyyətə başlayıb. 2001-ci ildən Rokfeller Universitetində professor vəzifəsində çalışır, həmçinin Vaşinqton Universitetinin Tibb Məktəbində və Kornell Universitetində adyunkt-professordur. O, Məhsullara və Dərmanlara Nəzarət İdarəsinin, Milli Səhiyyə İnstitutlarının və Ümumdünya Səhiyyə Təşkilatının komitələrində də çalışıb.

## Fizika üzrə



**Ser Rocer Penros** *(Roger Penrose)* 8 avqust 1931-ci ildə Böyük Britaniyanın Kolçester əyalətində Esseks şəhərində anadan olub. Britaniyalı riyaziyyatçı və relyativistdir. London Universitet Kollecini bitirib. 1957-ci ildə Kembric Universitetinin riyazi həndəsə doktoru elmi dərəcəsi alıb. 1973-cü ildən Oksford Universitetində riyaziyyat kafedrasında çalışır.

"Zamanın dövrləri: kainata fövqəladə yeni baxış" (2010) kitabında alim konformal tsiklik kosmologiya nəzəriyyəsini ifadə edərək Böyük Partlayışı sonsuz təkrarlanan hadisə kimi təriib edib. 2008-ci ildə Kral Cəmiyyətinin Kopli medalına layiq görülüb.



**Reynhard Genzel** *(Reinhard Genzel)* 24 mart 1952-ci ildə Almaniyanın Bad Hamburq şəhərində anadan olub. Astrofizikdir. Almaniyanın Frayburq və Bonn universitetlərində təhsil alıb. 1978-ci ildə Bonn Universitetində və Maks Plank Radioastronomiya İnstitutunda iki fəlsəfə doktoru dissertasiyasını müdafiə edib. 1999-cu ildən ABŞ-ın Kaliforniya Berkli Universitetində dərs deyir. 2010-cu ildə Maks Plank Cəmiyyətinin Yerdən Kənar Fizika İnstitutuna rəhbərlik edib. Amerika Fizika Cəmiyyətinin həqiqi üzvü (1985), Fransa Elmlər Akademiyasının xarici üzvü (1998), Bavariya Elmlər Akademiyasının üzvü (2003), Leopoldin Akademiyasının üzvü (2002), ABŞ Milli Elmlər Akademiyasının (2000), London Kral Cəmiyyətinin üzvüdür (2012).



**Andrea Gez** *(Andrea Ghez)* 16 iyun 1965-ci ildə ABŞ-ın Nyu-York şəhərində anadan olub. Amerikalı astronom fəlsəfə doktorudur. Əvvəlcə riyaziyyat ixtisası üzrə təhsil alıb, sonradan fizikaya meyil edib. 1987-ci ildə Massaçusets Texnologiya İnstitutunda fizika üzrə bakalavr, 1992-ci ildə isə Kaliforniya Texnologiya İnstitutunda fəlsəfə doktoru elmi dərəcələri alıb.

Hazırda Kaliforniya Universitetində fizika və astronomiya kafedrasının professorudur. 2004-cü ildə ABŞ Milli Elmlər Akademiyasının üzvü seçilib. "Discover" jurnalının versiyasına görə, ABŞ-ın aparıcı alimlərinin 20-liliyinə daxil olub.

## Kimya üzrə



**Cennifer Dudna** *(Cennifer Dudna)* 19 fevral 1964-cü ildə Vaşinqtonda anadan olub. Amerikalı alim, biokimyaçı, genomika tədqiqatçısı, CRISPR-Cas9 genomunun redaktəsi texnologiyasının yaradıcılarından biridir. 1985-ci ildə Pomona kollecini (kimya üzrə, bakalavr) bitirib. 1989-cu ildə Harvard Universitetinin Tibb Məktəbində biokimya üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. Kaliforniya Berkli Universitetinin professoru, Hovard Hughes Tibb İnstitutunun tədqiqatçısı (1997-ci ildən) ABŞ Milli Elmlər Akademiyasının (2002) və Tibb Akademiyasının (2010) üzvü, London Kral Cəmiyyətinin xarici üzvüdür (2016).



**Emmanuel Şarpantye** *(Emmanuelle Marie Charpentier)* 11 dekabr 1968-ci ildə Fransada anadan olub. Əsasən mikrobiologiya sahəsində ixtisaslaşıb. Pyer və Mari Küri Universitetini bitirib. 1995-ci ildə Paster İnstitutunun fəlsəfə doktoru elmi dərəcəsini alıb. ABŞ, Avstriya, İsveçdə işləyib. 2013-cü ildən Almaniyada çalışır. 2015-ci ildən Maks Plank Cəmiyyətinin İnfeksiyon Xəstəliklər İnstitutunda (CRISPR üzrə) departmanent rəhbəridir. Berlin Brandenburq Elmlər Akademiyasının (2016), Avstriya Elmlər Akademiyasının (2016), İsveç Elmlər Akademiyasının və ABŞ Elmlər Akademiyasının üzvüdür. Honkonq Elm və Texnologiya Universitetinin fəxri doktorudur (2017). Genomun redaktəsi texnologiyalarının inkişafı sahəsində tədqiqatlarına görə dünyanın bir sıra nüfuzlu elmi mükafatlarına layiq görülüb.

## Ədəbiyyat üzrə



**Luiza Qlyuk** *(Louise Elisabeth Glück)* 22 aprel 1943-cü ildə Nyu-Yorkda anadan olub. 2004-cü ildən Yel Universitetinin ingilis dili professorudur. Amerika Fəlsəfə Cəmiyyətinin üzvüdür. "Firstborn" adlı ilk şeirlər toplusu 1968-ci ildə çap olunub. Bu kitab onu müasir Amerika ədəbiyyatının ən görkəmli şairlərindən biri edib. Bir sıra nüfuzlu ədəbi mükafatlara layiq görülüb. Onların arasında Plutser (1993), Milli kitab (2014) mükafatlarını göstərmək olar.

# MDU-da "Qarabağ Azərbaycandır!" mövzusunda tədbir

Mingəçevir Dövlət Universitetində (MDU) professor-müəllim, inzibati-texniki heyət üzvlərinin və tələbələrin iştirakı ilə "Qarabağ Azərbaycandır!" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, "ZOOM" platforması üzərindən online formatda təşkil olunan tədbiri açan MDU-nun rektoru Şahin Bayramov sentyabrın 27-dən etibarən Prezidentimizin rəhbərliyi ilə müstəqil Azərbaycanın ən yeni tarixinin şanlı səhifələrinin yazıldığını bildirib. Xalqımızın 30 ilə yaxın müddətdə səbir etdiyini və işğal altındakı əzəli torpaqlarımızın qeyd-şərtsiz azad olunmasına dair BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icra olunmadığını vurğulayan rektor, Azərbaycanın bütün mümkün diplomatik vasitələrdən istifadə etdiyini və münaqişənin danışıqlar yolu ilə həllinə çalışdığını, lakin bu səylərin nəticəsiz qaldığını diqqətə çatdırıb.

Ali Baş Komandanımızın sentyabrın 25-də BMT tribunasından Azərbaycanın haqq səsini bir daha dünya ictimaiyyətinə çatdırdığını deyən Ş.Bayramov, həmin nitqdə Azərbaycan lideri tərəfindən düşmənin növbəti təxribat hazırlıqları barədə məlumatın səsləndirildiyini bildirib. Sentyabrın 29-da "Rossiya-1" kanalında yayımlanan müsahibənin Azərbaycan Prezidentinin qətiyyətini, iradəsini və yüksək liderlik bacarıqlarını bir daha nümayiş etdirdiyini vurğulayan rektor, həmin debatın düşmən ölkə rəhbəri üçün növbəti rəzalət və rüsvayçılıq olduğunu deyib.

Son günlər ərzində düşmən təxribatına layiqli cavab verən silahlı qüvvələrimizin əldə etdiyi uğurlar münasibətilə tədbir iştirakçılarını təbrik edən Ş.Bayramov Azərbaycan əsgərinin haqq savaşı apardığını vurğulayıb. Bütün doğma torpaqlarımızın işğaldan azad olunacağı günün yaxında olduğuna əminliyini ifadə edən rektor hazırda ölkəmizdə müşahidə olunan xalq-dövlət-prezident birliyinin hər birimizi sevindirdiyini, düşməni isə qorxuya saldığını söyləyib.

Tədbirdə çıxış edən MDU-nun kafedra müdiri E.Cəfərova mövcud şəraitdə Azərbaycanın müasir siyasi tarixində ilk dəfə olaraq 50 siyasi partiyanın rəhbərləri tərəfindən birgə bəyanat imzalanmasının əhəmiyyətindən danışıb. Siyasi partiyaların birgə bəyanatını Azərbaycanda siyasi həmrəyliyin nümunəsi kimi dəyərləndirən E.Cəfərova düşmənin işğalçı siyasətinə etiraz edən bütün siyasi qüvvələrin Ali Baş Komandanımızın ətrafında sıx birləşdiyini diqqətə çatdırıb.

Tədbir "Qarabağ Azərbaycandır!" şüarı ilə yekunlaşıb. MDU ailəsinin hər bir üzvünün ölkəmizin haqq savaşında Ali Baş Komandanımızın yanında olduğu bir daha vurğulanıb.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6526, **Sifariş** 2379

**Məsul növbətçi:** O.Mustafayev



Azərbaycan Respublikası
Təhsil Nazirliyi

## Naxçıvan Dövlət Universiteti

Aşağıdakı dekan və kafedra müdiri vəzifələrini tutmaq üçün müsabiqə

## ELAN EDİR

**Fakültə üzrə dekan vəzifəsini tutmaq üçün**

1. Xarici dillər
2. İqtisadiyyat və idarəetmə
3. Beynəlxalq münasibətlər və hüquq

**Kafedra üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. Kimya
2. Ümumi riyaziyyat
3. İnformatika
4. Biologiya
5. Əczaçılıq və biokimya
6. Stomatologiya
7. Ümumi təbabət və kliniki fənlər
8. Təməl tibb fənləri
9. İngilis dili və metodika

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na əsasən müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətinədək qəbul edilir. Sənədləri rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərmək lazımdır.

**Ünvan:** Naxçıvan şəhəri, Universitet şəhərciyi Naxçıvan Dövlət Universiteti

**Telefon:** (036)545-23-66

**REKTORLUQ**


# Etibarsız sayılır

**Bakı şəhər** 176 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Məmmədov Fehruz Fizuli oğluna verilmiş A-188201 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 289 nömrəli orta məktəb "Zəngi" Liseyi 2015-ci ildə bitirmiş İsmayılova Səkinə Mehman qızına verilmiş A-421603 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 13 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Heydərov Elxan Eldar oğluna verilmiş A-114519 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 39 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Mehdiyev Elşad Ələddin oğluna verilmiş E-148576 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 7 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Ağazadə Elvin Elçin oğluna verilmiş E-071989 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 292 nömrəli tam orta məktəbi (indiki 5 nömrəli tam orta məktəb) 2000-ci ildə bitirmiş Sadıqova (Fərzəliyeva) Günel Rabil qızına verilmiş AN-448673 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu** tərəfindən 1972-ci ildə Həsənova Elmira Nasir qızına verilmiş Э-214288 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti** (indiki BDU) tərəfindən 1986-cı ildə Məmmədov Mədət Əyyub oğluna verilmiş HB-007667 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Universiteti** tərəfindən 2006-cı ildə Məmmədov Həşim Ramiz oğluna verilmiş B- 060321 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 9 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Xəlilova (İsgəndərova) Səbinə Vahid qızına verilmiş 150628 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2004-cü ildə Əsgərova Şahnaz Əli qızına verilmiş B-003844 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 306 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Əmiraslanov Əlisahib Faiq oğluna verilmiş A-401612 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kənd Təsərrüfatı İnstitutu** tərəfindən 1979-cu ildə Əliyev Natiq Əli oğluna verilmiş 022340 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Dağ Kəsəmən kənd 2 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş İsmayılova (Əmirova) Günay Kamran qızına verilmiş A-126444 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Dağ Kəsəmən kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Namazova (Məmmədova) Səltənət Niyazi qızına verilmiş A-308522 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Köçəsgər kənd 1 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş İsgəndərova İlahə Muradxan qızına verilmiş 216334 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Qıraq Kəsəmən kənd tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Namazov Umud Novruz oğluna verilmiş A-274794 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Şəkərbəy kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Cavadov Abil Vaqif oğluna verilmiş A-071362 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 5 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Seyidcanova Arzu İlham qızına verilmiş 217922 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Əzizli Şəhriyar Bəxtiyar oğluna verilmiş A-026866 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 8 nömrəli məktəb-liseyi 2000-ci ildə bitirmiş Təhməzov Cavid Bəylər oğluna verilmiş A-467728 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2017-ci ildə Hüseynov Səbuhi Habil oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 6 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Həsənov Nihad Fərman oğluna verilmiş A-072222 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Məhəmməd Füzuli adına şəhər tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Əliyeva (Rüstəmova) Hüsniyyə Vidadi qızına verilmiş 489 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Qobustan şəhər** 1 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Həsənov Ağahəsən Əliəsgər oğluna verilmiş E-255124 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Bulaqlı kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədova Leyla Hüseyin qızına verilmiş B-070194 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Xırmandalı kənd 1 nömrəli tam orta məktəbi 1985-ci ildə bitirmiş Misirov Sadiq Allahverdi oğluna verilmiş AU-120565 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri Məktəb-Lisey Kompleksini** tam orta təhsil bazası üzrə 1994-cü ildə bitirmiş Məlikova Nərgiz Ağacan qızına verilmiş 236 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 15 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Hüseynov Azər Şükür oğluna verilmiş AK-428481 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Tibb Məktəbi** tərəfindən 1999-cu ildə Əlimuradova Samirə Cumart qızına verilmiş AB-II-042486 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 187 nömrəli tam orta məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Kərimov Murad Zaur oğluna verilmiş C-247686 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1963-cü ildə Əzimova (Zeynalova) Ramilə Həsən qızına verilmiş П-N-737082 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**5 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 1996-cı ildə Zeynalova Fərqanə Məmməd qızına verilmiş AB-012874 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti** tərəfindən 1975-ci ildə Rəsulov Zülfəli Rəcəb oğluna verilmiş Б-I-004252 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Düdəngə kənd tam orta məktəbin IX sinfini 1987-ci ildə bitirmiş Əliyev Rza Hatəm oğluna verilmiş A-257078 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 164 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Şıxı-zadə Zaur Gülverdi oğluna verilmiş A-409744 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 133 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əliyeva Nərmin Vaqif qızına verilmiş B-010533 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Məmmədov Alifazil Fazil oğluna verilmiş E-265324 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Maliyyə şöbəsinin əməkdaşı Adilə Şabanovaya həyat yoldaşı

**FİRUDİN ŞABANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Bacarıqlar həyatımızı dəyişir

## WorldSkills milyonlarla gəncə kömək edib

**Oruc MUSTAFAYEV**

Uşağın dizayner, proqramçı, mühəndis, ixtiraçı olmasına necə kömək etmək olar? Məşhur amerikalı rejissor Uolt Disney bu sualın cavabını yaxşı ifadə edib: "Əgər bir şey uydura bilərsənsə, bunu da edə bilərsən". Çoxları bunu belə qəbul edir: məktəblilərdə nəinki bir şey icad etmək istəyini, həm də onu həyata keçirmək, praktiki həllinə nail olmaq bacarığını tərbiyə etmək lazımdır.

Bu mənada son illərdə bir sıra ölkələrdə geniş yayılan WorldSkills International (WSI) layihəsi müasir reallıqlar dövründə xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın da bütün dünyada peşə bacarıqlarını təbliğ edən və peşələrin olimpiadası kimi tanınan WSI layihəsinə xüsusi həssaslıqla yanaşması və ölkəmizin sözügedən təşkilatın 85-ci üzvünə çevrilməsi barədə Təhsil Nazirliyi və adıçəkilən qurum arasında aparılan danışıqlar bu istiqamətdə ciddi niyyətlərdən xəbər verir. Belə ki, Azərbaycanın təşkilatın cari ilin oktyabr ayında nəzərdə tutulan ümumi yığıncağına qatılması və beləliklə, üzvlüyün təsdiqlənməsi gözlənilir.





### Səmərəli peşə təhsili sisteminin yaradılması

WorldSkills öz tarixini ötən əsrin 40-cı illərinin sonlarından götürür. 1947-ci ildə İspaniyada ilk dəfə olaraq peşə-texniki hazırlıq üzrə milli müsabiqə keçirilib. Müsabiqə peşə ixtisaslarının populyarlığını artırmaq və səmərəli peşə təhsili sisteminin yaradılmasına kömək etmək məqsədi daşıyırdı, çünki vətəndaş müharibəsindən sonra bərpa olunmağa başlayan ölkədə ixtisaslı işçilərin kəskin çatışmazlığı mövcud idi. Bu fikrin müəllifi İspaniya Gənclər Təşkilatının baş direktoru Jose Antonio Elola Olaso idi. Bu təşəbbüsü ilk dəfə Portuqaliya dəstəkləyib. Nəticədə, 1950-ci ildə hər iki ölkənin 12 nümayəndəsinin iştirak etdiyi ilk beynəlxalq Pireney yarışları keçirilib. Üç il sonra yarışlara Almaniya, Böyük Britaniya, Fransa, Mərakeş və İsveçrə təmsilçiləri də qatılıb. Beləliklə, 1953-cü ildə peşəkar usta müsabiqələrinin keçirilməsi üzrə Beynəlxalq Peşə Hazırlıq Təşkilatı (IVTO) yaradılıb. Müsabiqə ilk dəfə 1958-ci ildə Brüsseldə keçirilib. 2000-ci illərin əvvəllərində IVTO adını və simvolikasını dəyişib, o vaxtdan etibarən fəaliyyətini WorldSkills International adı altında həyata keçirir.

### Məqsəd və missiyası

WorldSkills peşə bacarıqlarının prestijini, müasir səriştə və bacarıqların inkişafını təmin etmək məqsədi daşıyan beynəlxalq qeyri-kommersiya hərəkatıdır. Təşkilatın məqsədi bütün dünyada, eləcə də ayrıca götürülmüş hər bir ölkədə, peşəkar ustalıq müsabiqələrinin təşkili və keçirilməsi vasitəsilə ən yaxşı təcrübələrin və peşə standartlarının uyğunlaşdırılması yolu ilə işçi peşələrin nüfuzunun artırılması və peşə təhsilinin inkişafına nail olmaqdır. WorldSkills peşə səriştələrinin inkişaf etdirilməsi, yüksək ixtisaslı kadrların nüfuzunun artırılması, iqtisadi artım və şəxsi uğur üçün səriştələrin əhəmiyyətini nümayiş etdirir. WorldSkills beynəlxalq əməkdaşlıq və istehsal, hökumət, təşkilat və institutlar arasında əlaqələrin inkişafı sayəsində yarışların keçirilməsi, birgə layihələrin təşkili və təcrübə mübadiləsi vasitəsilə ixtisaslı mütəxəssis hazırlığının üstünlüyünü və vacibliyini göstərir. Bu qurum gənclər, sənaye və cəmiyyət üçün peşə hazırlığı və tədrisin vacibliyini vurğulayır, gənc mütəxəssislərin seçdikləri peşədə ən yaxşı olmalarına kömək edir.

Peşə, texniki və xidmət yönümlü təhsil və təlimi təşviq edən WorldSkills 84 ölkədə gənclərlə, pedaqoqlarla, hökumətlərlə və istehsalatlarla əlaqəli, gələcəkdə işlə məşğul olmağa kömək etmək üçün bu gün əmək resursları və işçi istedadları yaradan peşəkar hazırlıq standartlarının artırılmasına dəstək verir. Ənənəvi sənətkarlıqdan tutmuş sənaye və xidmət sahəsində çoxşaxəli peşələrə qədər tərəfdaşların, istehsalatın, hökumətlərin, könüllülərin və təhsil müəssisələrinin dəstəyi ilə WorldSkills bütün dünyada peşəkar bacarıqların artmasına birbaşa təsir göstərir.



### Peşələrin çempionatı

WorldSkills bu gün bütün dünyada nüfuzlu və ən böyük yarışdır, burada gənc ixtisaslı işçilər, universitet və kollec tələbələri və tanınmış peşəkarlar, mütəxəssislər, istehsal təlimi ustaları və tapşırığın icrasını qiymətləndirən ekspert kimi təlimçilər iştirak edir. İki ildə bir dəfə üzv ölkələrdə keçirilən yarışları 100 minə yaxın tamaşaçı, dövlət nümayəndələri, işəgötürənlər, müəllimlər, məşqçilər, texniki ekspertlər və dünyanın hər yerindən dövlət qulluqçuları ziyarət edirlər. Peşə çempionatı dövlət orqanlarının və təhsil müəssisələrinin rəhbərlərinin, sənaye və ictimai təşkilatların nümayəndələrinin qarşılaşdığı, peşəkar bacarıqla bağlı ən vacib və aktual məsələlərin müzakirə olunduğu çoxşaxəli platformadır. WorldSkills çempionatları müxtəlif ölkələrdə keçirilir və sənayedən xidmət sahəsinə qədər peşəkar hazırlığın artırılması və bacarıqların təkmilləşdirilməsi sahəsində bütün istiqamətləri özündə əks etdirir. Müsabiqədə üzv ölkələrin milli peşə bacarığı çempionatlarının qalibləri iştirak edirlər. Onlar həm texniki hazırlıq səviyyələrini, həm də fərdi və kollektiv keyfiyyətlərini nümayiş etdirir, qarşılarına qoyulan vəzifələri öz iş yerlərində öyrənir və ya yerinə yetirirlər. Onların müvəffəqiyyəti və ya uğursuzluğu təkcə şəxsi peşə keyfiyyətlərindən deyil, həm də təmsil etdikləri ölkədə peşə hazırlığının və xidmətlərin ümumi keyfiyyət səviyyəsindən xəbər verir.

WorldSkills çempionatlarında səriştələr 6 mövzu blokunda birləşdirilib: tikinti sahəsi, IT, sənaye istehsalı, ictimai nəqliyyatına xidmət, xidmət sahəsi, yaradıcılıq və dizayn.

Qlobal peşə bacarıqları mərkəzi olaraq pedaqoqları, sənayeni, milli hökumətləri və beynəlxalq təşkilatları birləşdirən və onlara dəstək göstərən, əhəmiyyətli tədqiqatlara köməklik edən və peşə hazırlığı sistemləri üçün ən yaxşı qlobal istiqamət verən WorldSkills-in köməyindən milyonlarla gəncə yararlanıb. WorldSkills qeyd edir ki, "bacarıqlar həyatınızı dəyişə bilər. Öz ehtiraslarınıza əməl edin, iqtisadi perspektivlərinizi yaxşılaşdırın, cəmiyyəti daha yaxşı hala gətirin. Bacarıqlar imkanlar yaradır və cəmiyyəti birləşdirir. Onlar iqtisadi tərəqqinin əsasını təşkil edir, inamı gücləndirir, cəmiyyətlərin imkanlarını genişləndirir və iqtisadiyyatı dəstəkləməyə kömək edir".

### Səriştələr həyatı xilas edir

Beynəlxalq tədqiqatlar göstərir ki, yeni texnologiyaların ortaya çıxması və sosial proseslərdə baş verən dəyişikliklər dizayn, istehsal, idarəetmə və texniki xidmət sahələrində bir dəyişiklik yaradıb. Və bu, xüsusən iş yerinin, məşğulluq tərzinin, yeni bilik və bacarıqlara olan tələblərin dəyişməsinə, yəni,



yeni peşələrin ortaya çıxmasına səbəb olur. Eyni zamanda, bütün sahələrdə yeni peşələr yaranmır və bütün peşələr eyni dərəcədə sürətlə inkişaf etmir. Sənayenin yeni və bilik tələb edən sahələri dinamik, ənənəvi sahələr, məsələn, kənd təsərrüfatı, tikinti, enerji, dağmədən və nəqliyyat daha yavaş inkişaf edir. Beləliklə, birinci vəziyyətdə yeni peşələrin ortaya çıxmasını, ikinci halda isə köhnələrin qorunub saxlanılmasını müşahidə edirik. Yeni peşələrin yaranmasının ən güclü mənbəyi yeni elmi və texnoloji nailiyyətlərdir, məsələn, tibbdə 3D çap, qida sənayesində biotexnologiya, yeni bioloji materiallar, süni qida, kiber implantlar, robototexnika və s.

Bu mənada WorldSkills International əmək bazarının tələblərinə uyğun olaraq hazırda 3D rəqəmsal oyun sənəti, təyyarələrə qulluq, tikinti və tikinti texnologiyaları, nəqliyyat və logistika, avtomobil mühəndisliyi, kosmetologiya, mebel istehsalı, avtomobil rəssamlığı, dülgərlik, kimyəvi laboratoriya texnologiyası, bulud hesablama, istehsal və mühəndislik texnologiyası, inşaat polad konstruksiyaları, kiber təhlükəsizlik, informasiya və kommunikasiya texnologiyaları, elektrik quraşdırma, veb texnologiyası, su texnologiyası, vizual ticarət, restoran xidməti, prototip modelləşdirmə, plastik mühəndislik, mexanika və avtomatika, çap media texnologiyası, mobil robotlar, rəsm və bəzək, yaşıllaşdırma, səhiyyə və sosial yardım, qrafik dizayn texnologiyası, İT proqram təminatı və.s. kimi peşə sahələrində səriştələrin artırılmasını dəstəkləyir.

### COVID-19 və WorldSkills

Dünyanı bürümüş COVID-19 digər fəaliyyət sahələri kimi WorldSkills International -ın səylərinə də ciddi təsir göstərib. Qurum qeyd edir ki, üzvlərimizin sağlamlığı və təhlükəsizliyi bizim əsas prioritetimizdir. Bu səbəbdən WorldSkills bütün dünya üzrə təşkil olunan yerli, milli və regional peşə yarışlarını təxirə salıb. WorldSkills-ə qoşulmuş üzv ölkələr çox çevik surətdə onlayn təlimlərə uyğunlaşır, bəziləri isə səriştələrə dair virtual yarışları pilot olaraq təşkil edir. Qurum qlobal pandemiyanın inkişafı ilə əlaqədar tədbirlər planını daim gözdən keçirir. Hazırda təşkilatın rəhbər qurumu olan Baş Assambleyanın cari ildə keçirilməsi nəzərdə tutulan toplantısı və WorldSkills konfransı təxirə salınıb. Baş Assambleyanın alternativ iş mexanizmləri müəyyən edilir. Təşkilatın bir sıra beynəlxalq forumları gələn ilin sentyabrına təxirə salınıb.

Sonda qeyd edək ki, qloballaşan dünya reallıqları hər bir ölkədən müasir əmək bazarının tələblərinə uyğun, yüksək səriştə və bacarıqlara sahib insan potensialının yetişdirilməsini tələb edir. Ümumdünya İqtisadi Forumu da gələcək illərdə yüksək peşə səriştələrinə malik mütəxəssis hazırlığını nəzərdə tutan yenidənixtisaslaşma proqramını dəstəkləyir. Bu platformanın hədəfi 2030-cu ilə qədər dünyada 1 milyard insanın yenidən hazırlanması əsasında yeni bacarıq və səriştələr qazanmasını təmin etməkdir. Belə bir reallıqda ölkələrin müasir bacarıq və səriştələrə sahib ixtisaslı peşə sahiblərinin hazırlanmasını vəd edən WorldSkills layihəsinə ciddi və məsuliyyətli yanaşma tərzi başadüşüləndir.

### WorldSkills -in 3 mühüm devizi var

*İlham ver*

Biz gəncləri rəqabət və reklam aksiyaları vasitəsilə bacarıq və mükəmməl olmaq istəyini inkişaf etdirməyə ruhlandırırıq. Bacarıq müsabiqələrimiz mükəmməlliyi ölçür, çempionları qeyd edir və yüz minlərlə gənci həvəslərini peşəyə çevirməyə təşviq edir. Yarışlar bütün dünyada bacarıqların inkişafının əsas yollarıdır.

*İnkişaf et*

Biz qlobal təlim standartları, bençmarkinq sistemləri və sahənin cəlbediciliyini artırmaqla bacarıqlarımızı inkişaf etdiririk. Üzvlərimiz gənclərə təhsil almağa və yeni iş tapmağa kömək edirlər. WorldSkills standartlarının spesifikasiyaları bu təhsil sistemlərinin hazırlanması üçün təqdim etdiyimiz birinci dərəcəli vasitələrdən biridir.

*Dəstək*

Biz hər kəs üçün qlobal bacarıq platforması yaradan əməkdaşlıq və tədqiqatlar vasitəsilə sənayeye, hökumətlərə və müəllimlərə dəstək göstəririk. WorldSkills qlobal peşə bacarıqları mərkəzidir. Biz əhəmiyyətli tədqiqatlara kömək edirik və peşə sistemləri üçün ən yaxşı qlobal istiqamət veririk. Biz üzv ölkələrlə yarışlar, layihələr, konfranslar və çempionatlar təşkil edirik.